AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI
MİLLİ MÜNASİBƏTLƏR İNSTİTUTU

VAQİF ARZUMANLI
ADİL HÜSEYNOV

# AZƏRBAYCAN ÜNVANLI...

(XARİCİ ÖLKƏLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZLƏRİ VƏ CƏMİYYƏTLƏRİ)

BAKI – 1994

Redaktor: Filologiya elmləri doktoru, professor
TEYMUR ƏHMƏDOV

Arzumanlı Vaqif
Hüseynov Adil

Azərbaycan ünvanlı... B.: Qorqud, 1994, 110 s.

Bu kitabda dünyanın qabaqcıl ölkələrində yaşayan azərbaycanlıların təşkil etdikləri cəmiyyət, dərnək və mədəniyyət mərkəzləri haqqında oxuculara ilkin məlumat verilir. Azərbaycan ünvanlı Azərbaycan diasporunun əməli fəaliyyətinin, vətən qayğısının və gələcəkdə görəcəkləri xeyirxah işlərin təbliği  kitabın başlıca qayəsidir.

# ÖN SÖZ

Tariximiz və taleyimiz elə gətirmişdir ki, Azərbaycanın bir çox oğul və qızları müxtəlif səbəblər üzündən öz doğma torpaqlarından uzaqlaşmış, ucsuz-bucaqsız dünyamızın müxtəlif ölkələrində məskunlaşmış, yurd-yuva salmışlar. Soydaşlarımız doğma torpaqlarından nə qədər uzaq olsalar da, onlar Vətən məhəbbətini, vətən təəssübkeşliyini nəsildən-nəslə ən qiymətli miras olaraq saxlamışlar. İllər ötdügcə, bir nəsil o birini əvəz etdikcə vətən hissiyatı öz ilkin qüvvəsini itirmək qorxusuna məruz qalmışdır. Ölkələr və xalqlar arasında çəkilmiş keçilməz səslər, görünməz pərdələr uzun müddət vətən övladlarının yadlaşma qorxusunu artırmışdı.

Son illər şahid olduğumuz ictimai-siyasi hadisələr demokratik dəyişiklər həyatımızın gündəlik ahənginə öz yenilik təravətini gətirməkdədir. Şimali Azərbaycanda gedən demokratik hərəkatın və milli dirçəlişin realları artıq dünya ictimaiyyətinin marağına səbəb olmuşdur. Bu tarixi reallıqlar keçmiş imperiya imtiyazlarının bərpasına çalışan qüvvələrin fitnəkarlığı və erməni millətçilərin Azərbaycana qarşı açıqcasına hərbi təcavüzünün çulğaşdığı bir zamanda baş verməkdədir. Şimali Azərbaycanda baş verən demokratik proseslər, kövrək müstəqillik addımlarımız vətəndən uzaq yaşayan soydaşlarımızın milli qürur hisslərini artırmışdır. İndi onlar Azərbaycanı keçmiş sovet imperiyasının özəlləşmiş bir parçası kimi yox dünya siyasətində hələlik öz ılıq nəfəsi seçilən bir dövlət kimi görürlər.

Xaricdə yaşayan həmvətənlərimizlə həmrəyliyin əsas təminatı Azərbaycan Respublikasının müstəqil xarici siyasətindən çox asılıdır. Məlumdur ki, Azərbaycan bütün ölkələrlə dinc yanaşı yaşamaq mübahisəli məsələlərdə zorakılığa yol verməmək, bir-birinin daxili işlərinə qarışmamaq, hərtərəfli əməkdaşlıq və qarşılıqlı yardım əsasında münasibətlər qurmaq prinsiplərinə əməl etməsi çox mühüm şərtdir. Son vaxtlar Azərbaycan Respublikasının bir çox dövlətlərlə iqtisadi və siyasi əməkdaşlığı, birbaşa diplomatik əlaqələr yaratması və beynəlxalq təşkilatlarda təmsil olunması xaricdəki soydaşlarımızla əlaqələrin genişlənməsinə xeyli kömək etmişdir.

Müasir dünyamızın mürəkkəb və ziddiyyətli bir dövründə müstəqillik yolunda ilk addımlar atan Azərbaycan Respublikası onun hüdudlarından kənarda yaşayan soydaşlarımızın qayğı və problemləri ilə yaxından

maraqlanmağı, onların hüquq və azadlıqlarını qorumaq üçün əməli fəaliyyət göstərməyi özünə borc sayır. Eyni zamanda, indi ki mərhələdə Azərbaycanın erməni təcavüzünə qarşı mübarizəsində onların yardımına, maddi və mənəvi köməyinə ciddi ehtiyac vardır. Bütün bunlar doğma Azərbaycanımızın müharibə od-alovundan qurtarmasına, onun müstəqilliyinin möhkəmlənməsinə yönəlməsi ilə yanaşı soydaşlarımızın öz milli varlıqlarından, tarixlərindən və mədəniyyətlərindən uzaq düşməməsinə də xidmət edir. Taleyin hökmü ilə doğma vətənlərindən uzaq düşmüş soydaşlarımıza müstəqil Azərbaycan Respublikasının tam hüquqlu vətəndaşları kimi yanaşılması günün reallıqıdır. İndi elə bir dövrdür ki, onların da Azərbaycana yaxından qayğı göstərmələrinə, doğma vətənlərinin dərd-sərinə yanmalarına böyük və mənəvi tələbat vardır.

Xaricdə yaşayan soydaşlarımızla əlaqələrin möhkəmləndirilməsi milli dövlətçiliyimiz baxımından müasir həyatımızda ən vacib və son dərəcədə mühüm olan bir sahədir. Son illər xaricdəki Azərbaycan cəmiyyətlərinin, milli-mədəni mərkəzlərin, assosiasiyaların sayı xeyli artmış, onların fəaliyyət dairəsi genişlənmişdir. Şübhə yoxdur ki, xarici ölkələrdəki azərbaycanlı icmaların hamısı heç də arzu olunan səviyyədə fəaliyyət göstərmək imkanına malik deyildir. Onların bir qismi qədim etnik torpaqlarda, bir çoxu isə keçmiş sovet respublikalarının ərazisində məskunlaşmışlar. Dünyanın bütün qitələrinə səpilmiş azərbaycanlı icmaları ictimai, siyasi və iqtisadi zəmində fəaliyyət göstərirlər. Azərbaycan icmaları ilə, onların yaratdıqları cəmiyyətlərlə, milli-mədəni mərkəzlərlə hərtərəfli sıx əlaqələrin yaradılması çox vacibdir və bu zaman milli-mənəvi dəyərlərin qorunub saxlanılması, təbii, coğrafi, tarixi, milli-psixoloji, iqtisadi və digər amillər mütləq nəzərə alınmalıdır.

Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri və mədəniyyət mərkəzləri ana dilimizin, mədəni irsimizin, adət-ənənələrimizin qorunub saxlanılması, təbliğ olunması sahəsində olduqca xeyirxah, əvəzsiz fəaliyyət göstərirlər. Bu günkü Azərbaycan Respublikası azərbaycanın ictimai-siyasi həyatı, burada baş verən demokratik proseslər barədə nəinki soydaşlarımız, eyni zamanda, bu və ya başqa ölkənin geniş ictimaiyyəti arasında obyektiv məlumat yaymaqda həmin cəmiyyətlərin və mədəniyyət mərkəzlərinin səmərəli işi təqdirəlayiqdir. Onlar son illərdə torpaqlarımıza təcavüz etmiş erməni millətçilərinin işğalcılıq əməllərinin, haqsız ərazi iddialarının, sərsəm

xülyalarının ifşa olunması, əsl həqiqətin dünya ictimaiyyətinə catdırılması işində böyük səy göstərirlər.

Yeri gəlmişkən, qeyd edək ki, Qarabağ avantürasının təbliğat, maddi və hərbi təminatında erməni diasporasının xaricdəki fəaliyyətinin genişliyi, çoxsahəliliyi, nizamlı quruluşu heyrət doğurur. Bu da təsadüfi deyil. Çünki, erməni diasporasının və lobbisinin köklü ənənəsi, tarixi səbəbləri var. Hələ qırxıncı illərdə Ermənistanda xarici diaspora ilə işləmək üçün xüsusi komitə yaradılmışdır. Eyni zamanda, 1988-ci ilin fevral, ayından başlayaraq Azərbaycana qarşı erməni təcavüzü başlayandan sonra xarici ölkələrdə yaşayan 30 milyondan artıq azərbaycanlının səsi uzun müddət eşidilmədi. Belə hal respublikamızda həqiqətən haqlı təəccübə səbəb oldu.

Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət cəmiyyətləri 1988-ci ildən sonra öz fəaliyyətlərini xeyli gücləndirdilər və müxtəlif ölkələrdə yeni-yeni cəmiyyətlər, mərkəzlər yaranmağa başladılar. 1990-cı ilin qanlı yanvarından sonra bu cəmiyyətlərin və mərkəzlərin səsi demək olar ki, dünyanın bütün, böyük dövlətlərindən eşidilməyə başlandı.

Bizim günlərdə artıq xarici ölkələrdə yaşayan soydaşlarımızın səsi çox gur eşidilir. Onlar Azərbaycan Respublikasında baş verən hər böyük siyasi hadisəyə hay verirlər, qaçqınlar üçün dərman və paltar göndərirlər. Azərbaycanlı biznesmenlərin çoxu indi Azərbaycan Respublikasının iqtisadiyyatına, elminə sərmayə qoymağa hazırdırlar və bunun üçün müvafiq zəruri şəraitin yaradılmasını gözləyirlər.

Bütün bunlar son illərdə müstəqillik və demokratiya yollarında geniş addımlar atmağa başlayan respublikamızda xarici soydaşlarımızla bağlı aparılan ardıcıl işlərin və konkret addımların nəticəsidir.

Son bir neçə ildə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri ilə əlaqələr xeyli intensivləşmişdir. “Azərbaycan dünyası” Beynəlxalq əlaqələr Mərkəzi və “Vətən” cəmiyyətinin fəaliyyəti ilə yanaşı, respublikamızın bir sıra əlaqədar təşkilatları da xarici ölkələrdə yaşayan soydaşlarımızla sıx əlaqə yaratmağa təşəbbüs göstərmişlər.

1990-cı ildə İstambulda Azərbaycan cəmiyyətlərinin birinci beynəlxalq qurultayı olmuşdur. Həmin qurultayda bütün dünyada fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzlərinin və cəmiyyətlərin vahid ittifaqda birləşdirməsi barədə qərar qəbul olunmuş, əlaqələndirmə şurasının yaradılması təklif edilmişdir. Bu qurultay ilk növbədə xarici ölkələrdəki

Azərbaycan cəmiyyətlərinin fəaliyyəti, onların bir-birinə bənzər problemləri ilə tanışlıq baxımımdan böyük əhəmiyyət kəsb etdi.

1991-ci ilin yanvarında Respublikada Nazirlər Kabineti "Ayrı-ayrı respublikalarda yaşayan azərbaycanlılarla əlaqələri möhkəmləndirmək, milli mədəniyyətin, doğma dilin və ənənələrin inkişafında onlara kömək göstərmək tədbirləri haqqında" qərar qəbul etmişdir.

Respublikamızdan kənarda fəaliyyət göstərən Azərbaycan mədəni cəmiyyətləri arasında əlaqə yaratmaq və aparılan işləri düzgün istiqamətləndirmək məqsədi ilə mart ayının 28-dən 30-dək Bakı şəhərində Mədəniyyət Nazirliyi xətti ilə Azərbaycan Mədəni cəmiyyətləri sədrlərinin iştirakı ilə seminar müşavirə keçirilmiş, konkret vəzifələr müəyyənləşdirilmişdir.

Respublika Mədəniyyət Nazirliyi Azərbaycan mədəniyyət mərkəzlərinə maddi kömək göstərmək məqsədi ilə bir sıra konkret tədbirlər görmüşdür. Demək olar ki, cəmiyyətlərin əksəriyyəti ədəbiyyat, rəsm əsərləri, musiqi alətləri, milli geyimlərlə təmin olunmuşlar. Bazar günü məktəblərində Azərbaycan dilinin tədrisi üçün onlara nazirlik tərəfindən nəşr olunan "Azərbaycan dilini öyrənirik" qramvallar albomu göndərilmiş, dahi Nizaminin 850 illik yubileyi ilə əlaqədar olaraq Tallində, Daşkənddə, Sankt-Peterburqda, Kiyevdə, Xarkovda, Minskdə, Moskvada və başqa şəhərlərdə fəaliyyət göstərən Azərbaycan mədəni mərkəzləri ilə birlikdə geniş tədbirlər keçirilmiş, keçmiş ittifaq respublikalarında bir çox şəhərlərdə Novruz bayramı münasibətilə şənliklər təşkil edilmişdir. Bu şənliklərdə respublikanın ayrı-ayrı folklar kollektivləri çıxış etmiş, artistlərimiz teatrlaşdırılmış tamaşalar göstərmişlər.

Həmin ilin iyun ayında isə Zuğulbada keçmiş SSRİ-nin müxtəlif şəhərlərində fəaliyyət göstərən Azərbaycan Respublikası Azərbaycan milli mədəniyyət mərkəzləri və cəmiyyətləri nümayəndələrinin konfransı çox səmərəli olmuşdur.

1992-ci ildə də xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələr möhkəmləndirilmişdir. Belə ki, aprel ayında Bakıda xarici ölkələrdəki Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətlərinin əlaqələndirmə mərkəzi yaradılmış, avqusta isə xaricdəki Azərbaycan cəmiyyətlərinin Bakı konfransı keçirilmişdir. Bakıda Dünya azərbaycanlılarının birinci qurultayı keçirilməsi nəzərdə tutulmuşdur. Xalqımızın tarixində çox

əlamətdar ictimai-siyasi hadisə olacaq həmin qurultayın əhəmiyyəti böyük olacaqdır.

İndi uzun və əzablı ayrılıq sona çatıb.

Xaricdə yaşayan həmvətənlərimiz də özlərini müstəqil Azərbaycan dövlətinin vətəndaşı kimi hiss etməli, onların halalca haqqı özlərinə qaytarılmalı, ədalət bərpa olunmalıdır. Bax, qurultay bu tarixi və bəşəri vəzifəni müəyyən dərəcədə həyata keçirməlidir. Xaricdəki azərbaycanlılar cəmiyyətlərinin bir-biri ilə, eyni zamanda respublikamızla əlaqələrini möhkəmləndirmək, onların fəaliyyətini tənzimləmək, qürbətdəki soydaşlarımızın təşkilatlanmasını sürətləndirmək, həqiqətlərimizin onların vasitəsi ilə daha çox ölkəyə yayılmasını təmin etmək, mühacir qardaşlarımızın hüquqlarını qorumaq, xaricdəki milyonlarla azərbaycanlının mədəni muxtariyyət qazanmasına səy göstərmək də bu ali məclisin məqsədlərinə daxil olacaqdır.

Xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin və mədəniyyət mərkəzlərinin nümayəndələri vaxtaşırı respublikamıza gəlir. Respublikamızın ictimai siyasi, iqtisadi və mədəni həyatı ilə yaxından tanış olurlar. Müstəqillik yollarına çıxan Şimali Azərbaycanda gedən demokratik dəyişikliklər soydaşlarımıza dərin təsir bağışlayır, onları sevindirir. Öz növbəsində Azərbaycan ictimai və mədəniyyət xadimlərinin, incəsənət ustalarının xaricdəki çıxışları və görüşləri soydaşlarımızla əlaqələrin möhkəmlənməsinə kömək edir. Son vaxtlar dövlət səviyyəsində görülən tədbirlər, ictimai təşkilatların, xüsusən “Yurddaş”, “Vətən”, “Tanıdım”, “Sodrucestvo”, “Bakılı” və digər cəmiyyətlərin, Azərbaycan Mədəniyyət Fondunun fəaliyyəti xaricdəki həmvətənlərimizlə əlaqələrin rəngarəngliyini müəyyən dərəcədə zənginləşdirmişdir.

Lakin ictimai-siyasi həyatda gedən demokratik proseslər soydaşlarımızla, onların yaratdıqları cəmiyyətlərlə, mədəni mərkəzlərlə, təşkilatlarla əlaqələrin daha da genişlənməsini, dərinləşməsini, onların fəaliyyətlərinin əlaqələndirilməsini tələb edir. Heç şübhə yoxdur ki, dünya azərbaycanlılarının ilk qurultayının keçirilməsi yurddaşlarımızla və soydaşlarımızla əlaqələrin möhkəmlənməsində mühüm vasitə olacaqdır. Qurultaya xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin və mədəniyyət mərkəzlərinin işləməsinin əlaqələndirilməsinə imkan yaradacaq, yeni bir nüfuzlu beynəlxalq qurumun təşkilinə, onun daha səmərəli və müntəzəm fəaliyyət göstərməsinə şərait yaradacaqdır. Bütün

bunların əməli və tarixi əhəmiyyətini nəzərə alıb Dünya azərbaycanlılarının birinci qurultayının keçirilməsi vacibdir.

*      *      *

Azərbaycan Respublikası Elmlər Akademiyası Milli Münasibətlər İnstitutu fəaliyyətə başladığı ilk günlərdən xarici ölkələrdə yaşayan soydaşlarımız ilə əlaqə yaratmağa cəhd göstərmiş xarici ölkələrdə yaradılmış Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətlərinin işi ilə maraqlanmışdır.

Bu bir tərəfdən həmin mərkəz və cəmiyyətlərə müəyyən kömək əli uzatmaq məqsədi ilə bağlıdırsa, digər tərəfdən istəyirik ki, yaxın gələcəkdə respublikamızdan kənarda fəaliyyət göstərən milli mədəniyyət ocaqlarımız, onların fəalları vətənpərvər oğullarımız haqqında ayrıca kitab hazırlayıb nəşr etdirmək olmuşdur. Bu məqsədlə dünyanın bir çox ölkələrinə, o cümlədən, keçmiş Sovetlər ittifaqının ayrı-ayrı respublika və şəhərlərinə göndərdiyimiz məktublara cavablar almışıq. Belə məktubların içərisində sevindirici xəbərlərlə yanaşı, təəssüf doğuran, ürək ağrıdıcı sətirlərə də tez-tez rast gəlirik. Və məlum olur ki, Vətənimizin böyük bir ərazisi düşmən təcavüzünə məruz qaldığı bir dövrdə doğma Azərbaycanımızdan min kilometrlərlə uzaqlarda hər bir imkandan istifadə edərək, respublikamızın, xalqımızın başını uca edən oğullarımızla yanaşı, yalnız öz cibini və mənafeyini güdüb hər cür əmələ qoşularaq, millətimizə, torpağımıza ləkə gətirən üzdəniraq "oğullarımız" da az deyil. Sonuncuların əməlləri barədə eşidərkən xəcalət təri tökürsən.

İstər-istəməz fikirləşirsən ki, məhz belələridir Moskvada, Sankt-Peterburqda, Riqada, Tallində, Samarada, Tümendə, Xabarovskda və neçə-neçə başqa şəhərlərdə antiazərbaycanlı (alverçi-azərbaycanlı, ruşvətxor-Azərbaycanlı, cinayətkar azərbaycanlı) obrazı yaratmaq üçün canfəşanlıq edən düşmənlərimizin əlinə əsas verənlər. Onsuz da xalqımızın demokratiya və müstəqillik yollarında qazandığı uğurların, suveren Azərbaycanımızın dünya miqyasında atdığı addımlarının paxıllığını çəkənlər az deyildir. Hətta iş o yerə çatıb ki, bu gün istər yaxın, istərsə də uzaq xarici ölkələrdə Qafqazdan olan hər hansı bir millətin nümayəndəsi cinayət törədirsə, yöndəmsiz iş tütursa, kobudluq edirsə, onu mütləq azərbaycanlı kimi qələmə vermək üçün, azərbaycanlının ayağına yazmaq

üçün dəridən-qabıqdan çıxırlar. Belə olduğu halda biz azərbaycanlılar harada olursa-olsun istər Şimali Qafqazda, istər Rusiyada, istər Baltikyanı ölkələrdə, istər Orta Asiyada, istər Avropanın və Amerikanın bu və ya başqa ölkələrində daha həssas, daha ehtiyatlı, daha tədbirli davranmalı, öz hərəkətlərimizə diqqət yetirməliyik.

* * *

Oxuculara təqdim olunan bu kitab xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin, mədəniyyət mərkəzlərinin və assosiasiyalarının fəaliyyətini əks etdirən ilk təşəbbüsdür.

Xaricdə yaşayan soydaşlarımızla əlaqələrin hələ istənilən səviyyədə öyrənilməməsi, indiyə kimi bu sahədə aparılan araşdırmaların zəifliyi kitabın tam əhatəli olmasına imkan verməmişdir. Xatırladaq ki, hazırki kitabın rus və ingilis dillərində də nəşri nəzərdə tutulmuşdur. Bu kitabın həmin dillərdə çap olunmasına qədər hörmətli oxucularımızın təklif və qeydlərini nəzərə alacaq, kitabın mövzu dairəsini daha da genişləndirməyə çalışacağıq. Müəlliflər gələcəkdə bu istiqamətdə öz tədqiqatlarını davam etdirəcək, soydaşlarımızın xaricdəki cəmiyyətləri, mədəniyyət mərkəzləri və digər təşkilatları haqqında məlumatları zənginləşdirməyə, onun daha əhatəli olmasına cəhd göstərəcəklər. Və, nəhayət, bu kitab üzərində işlərkən bizə öz köməyini əsirgəməyən “Vətən” və “Yurddaş!” cəmiyyətlərinin, habelə Milli Münasibətlər İnstitutunun bəzi əməkdaşlarına öz minnətdarlığımızı bildiririk.

Bizdə belə bir inam var ki, xarici soydaşlarımızın ədəbi, mədəni və ictimai fəalliyyətinə həsr olunmuş bu kitab həm geniş oxucu kütləsi, həm də ədəbi və elmi ictimaiyyətimiz tərəfindən Azərbaycan Elmlər Akademiyası Milli Münasibətlər İnstitutunun kiçik tövhəsi kimi qəbul ediləcəkdir.

# AVSTRALİYA

## “AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ”
## (Sidney)

Avstraliyanın Sidney şəhərində yaradılmış “Azərbaycan Mədəniyyət mərkəzi”nin məqsədi respublikamızda baş verən ictimai siyasi, demokratik prosesləri açıqlamaq, geniş ictimaiyyəti onların mahiyyəti ilə tanış etməkdir. Mərkəz Azərbaycanla əlaqələri möhkəmlətməklə, respublikanın mürəkkəb ictimai siyasi vəziyyətini, xüsusən erməni təcavüzü nəticəsində baş vermiş müharibə haqqında həqiqəti Avstraliyada yaşayan həmvətənlərimizə çatdırmaqda xeyli iş görür. Mərkəzin sədri Cəmşid Qızılbaş ötən ilin payızında həyat yoldaşı Əfsanə xanımla Bakıda qonaq olduğu dövrdə Avstraliya televiziyasının sifarişi ilə bir saatlıq “Azərbaycan bu gün” filmi üçün material toplamış, Azərbaycanla milli demokratik hərəkatın gedişi ilə, demokratik qüvvələrin hakimiyyətə gəldiyi dövrdən həyata keçirilən dəyişikliklərlə dövlət quruculuğu məsələləri ilə yaxından tanış olmuşdur. Mərkəz Azərbaycandan Avstraliyaya musiqiçilər dəstəsinin, alimlərin, yazıçıların və dövlət xadimlərinin dəvət olunması sahəsində də səmərəli fəaliyyət göstərir. Avstraliya ilə iqtisadi əlaqələrin yaradılmasında, Sidneydə Azərbaycan mədəniyyəti sərgilərinin təşkili işində yaxından köməklik göstərir.

C.Qızılbaş doğma vətəni Azərbaycanla müntəzəm olaraq maraqlanır, onun hazırkı dövrdə ictimai-siyasi həyatı barədə geniş təbliğat aparır. Xüsusən, bir telejurnalist kimi. Son altı ay ərzində C.Qızılbaş ağır cərrahiyyə əməliyyatı keçirməsinə baxmayaraq. Azərbaycan haqqında düzgün və obyektiv məlumatlar yaymaq məqsədilə İsveçdə, Hollandiyada, Almaniyada, Fransada, İngiltərədə, Kanadada və ABŞ-da səfərlərdə olub. Bu ölkələrdəki həmkarları, dostları vasitəsilə xeyli iş görüb. İstər sənədli lentlərin, istərsə də əyani vəsaitlərin - kitab, jurnal, qəzet və s. köməyi ilə C.Qızılbaş Azərbaycanın bugünkü həyatı, Qarabağ həqiqətləri haqqında qiymətli telereportac və məqalələri ilə tez-tez dünyanın müxtəlif telekanallarına, mətbuat səhifələrinə çıxır. Sidney şəhərindəki Siyasi Elmlər Universitetinin məzunu olan C.Qızılbaşın peşəkar siyasətci kimi dünya miqyasında Azərbaycanın təbliği ilə bağlı geniş yaradıcılıq planları vardır.

## “AZƏRBAYCAN TÜRKLƏRİ BİRLİYİ”
## (Sidney)

Uzaq Avstraliyanın paytaxtı Sidney şəhərində yaşayan soydaşlarımızın daha bir mədəni cəmiyyətləri “Azərbaycan Türkləri Birliyi” fəaliyyət göstərir. Bu birliyin yaranması lap son aylara təsadüf edilir.

Birliyin ən böyük uğurlarından biri Sidney şəhərində “Azərbaycanın səsi” radiostansiyasının yaradılmasıdır. Həmin radio verilişlərinin Baş redaktoru Azərbaycan Dillər İnstitutunun məzunu Gülzar Qasımzadədir.

“Azərbaycan Türkləri Birliyi” rəhbəri cənubi Azərbaycan ziyalısı Həsən bəydir.

Sidneydə yaşayan həmvətənimiz İmaməddin Xanbaba oğlu Bakıda nəşr olunan “Azadlıq” qəzeti redaksiyasına müraciət edərək “Azərbaycan Türkləri Birliyi” üzvlərinin Azərbaycan Respublikasında yaşayan soydaşları ilə əlaqə yaratmaq arzusunda olduqlarını bildirmişdir.

# ALMANİYA

## “AZƏRBAYCAN ALMANİYA CƏMİYYƏTİ”
## (Berlin)

“Azərbaycan-Almaniya Cəmiyyəti” 1988-ci ilin əvvələrində yaranmışdır. Onun əsas məqsədi Almaniyada Azərbaycana olan marağın artdığı bir şəraitdə geniş ictimaiyyəti xalqımızın milli dirçəliş prosesi, onun mədəniyyəti, iqtisadiyyatı və incəsənəti ilə tanış etməkdir. Cəmiyyət soydaşlarımız, eləcə də Mərkəzi Asiya dövlətlərinin Almaniyada yaşayan vətəndaşları arasında öz fəaliyyəti ilə şöhrət tapmışdır. Azərbaycana yardım üçün xüsusi fond yaradılmışdır. Cəmiyyətin yaxından iştirakı ilə Azərbaycanla həmrəylik mitinqləri təşkil edilir. Qərbdə istedadlı rəssam kimi tanınan, "Azərbaycan-Almaniya Cəmiyyəti»nin sədri İbrahim Əhrari dəfələrlə Bakıda olmuşdur. Hər səfəri zamanı Azərbaycana, müharibə aparan döyüşçülərimizə dava-dərman gətirmişdir. O, Azərbaycan

Rəssamlar Birliyinə fəxri üzv seçilmişdir. İbrahim Əhrarinin rəsm əsərlərinin Bakıda xeyriyyə məqsədilə sərgisi təşkil edilmişdir. Əldə olunan vəsait yetim uşaqlara və yaralı əsgərlərə kömək üçün ayrılmışdır. Cəmiyyət Almaniya ictimaiyyətini Azərbaycan mədəniyyəti, onun zəngin ənənələri ilə tanış etmək məqsədilə konsertlər, poeziya gecələri, musiqi festivalları, sərgilər və digər mədəni tədbirlər keçirir. İbrahim Əhrari bu tədbirlər zamanı toplanan vəsaitlə Azərbaycan Qaçqınlar Cəmiyyətinin elmi mərkəzinə də yardım etmişdir. Bu yaxınlarda Azərbaycan İncəsənət muzeyinə dünya rəssamlarının qiymətli oricinal əsərlərini hədiyyə verməsi rəğbətlə qarşılanmışdır.

## "AZƏRBAYCAN AKADEMİYASI CƏMİYYƏTİ" (Berlin)

Berlin şəhərində yaşayan azərbaycanlı mütəxəssislər və Azərbaycanşünaslıqla məşqul olan qeyri-azərbaycanlı elm və mədəniyyət xadimləri yeni bir cəmiyyət yaratmışlar: "Azərbaycan Akademiyası". Cəmiyyətin məqsədi Azərbaycan elm və mədəniyyətini Qərbi Avropada tanıtmaq, onun Almaniyada inkişafına şərait yaratmaqdır.

"Azərbaycan Akademiyası" Cəmiyyətinin prezidenti Avropa ölkələrində yaxşı tanınan alim Əhməd Yəzdanidir.

Cəmiyyətin vitse-prezidenti Məsud Pənahi (o, həmyerlimizdir. Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini və Moskva Kinematoqrafiya İnstitutunu bitirib. 1979-cu ildən Berlində yaşayır) "Elm" qəzetinə verdiyi müsahibəsində bildirib ki, "Azərbaycan Akademiyası" Azərbaycanla bağlı araşdırmalara, o cümlədən dilçilik və ədəbiyyatşünaslıq, tarix elmləri, folklorşünaslıq, etnologiya, antropologiya, dilşünaslıq, sənətşünaslıq, təbabət, psixologiya sahəsində aparılan bütün işlərə yardım göstərəcəkdir. Həmçinin Azərbaycanın özündə olan ən vacib elmi axtarış və tapıntıları Qərbdə tanıtmağa, təbliğ etməyə səy edəcəkdir.

Elmi layihə və nəşrlərin uyğun formalarına kömək etməklə, xüsusi dövri və s. mətbu orqanlar təsis etməklə, kitabxanalar, nəşriyyatlar, o cümlədən bütün kooperasiya formalarını yaratmaqla, müxtəlif akademiyalar, elmi müəssisə və təşkilatlarla əlaqələr qurub, inkişaf etdirməyə, türkoloqların mübadiləsinə böyük ümidlər bəsləyirik"..

“Azərbaycan Akademiyası” artıq bir sıra konkret işlər görüb. Yuri Pompeyevin Qarabağ hadisələrinə dair kitabı alman dilinə tərcümə edilib nəşr olunmuşdur.

Hazırda Cəmiyyət öz mətbu orqanını nəşrə hazırlayır. Cəmiyyətin xətti ilə Azərbaycandan Berlin şəhərinə bir dəstə alim dəvət edilib.

Cəmiyyət bu yaxınlarda Azərbaycan alimlərinin bəzi uğurlarının Qərb aləmində yayılması yolları barədə konkret iş planı hazırlamış və Almaniya dövlətindən bu işə görə rəsmi razılıq almışdır.

## “AZƏRBAYCAN KÜLTÜR OCAĞI”
## (Berlin)

Almaniyanın Berlin şəhərində fəaliyyət göstərən “Azərbaycan Kültür OCAĞI”nın başlıca məqsədi soydaşlarımız arasında dilimizi, mədəniyyətimizi, adətənənələrimizi, incəsənətimizi qoruyub saxlamaq və bunları Avropada yaşayan xalqlara tanıtmaqdır. OCAĞIn fəaliyyətinə idarə heyəti rəhbərlik edir. Tez-tez xeriyyə gecələri, konsertlər təşkil edilir. Azərbaycan-Almaniya Cəmiyyəti ilə birlikdə Azərbaycan mədəniyyəti günləri keçirilir. “Azərbaycan Kültür OCAĞI” öz fəaliyyətini yalnız mədəni tədbirlərlə məhdudlaşdırmır. Bakıda 20 Yanvar hadisəsi və Xocalı faciəsi ilə əlaqədar etiraz mitinqlərinin keçirilməsində, kütləvi informasiya vasitələri ilə əsil həqiqətin geniş ictimaiyyətə çatdırılmasında “OCAĞIn” üzvləri xüsusi fəallıq göstərmişlər. “Azərbaycan Kültür OCAĞI” xaricdə yaşayan həmvətənlərimiz ilə Azərbaycanın əlaqələrinin genişlənməsinə çalışır.

“Azərbaycan Kültür OCAĞI” “Savalan” adlı jurnal nəşr etdirir.

Berlindəki “Azərbaycan Kültür Ocağı”nın İdarə heyətinin və “Savalan” jurnalı İdarə heyətinin üzvü, tərcüməçi Həbib Makulu bu ilin yanvarıda Bakıda qonaq olmuşdur.

Təkcə Berlində deyil, ümumən Almaniyada və Avropada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzləri və Cəmiyyətlərinin işi barədə H.Makulu “Səhər” qəzetinin müxbiri Zemfira Müseyibqızı ilə müsahibəsində demişdir.

Qərb ölkələrində çoxlu azərbaycanlı yaşayır. Onlar müxtəlif dövrlərdə bu əsrin əvvəllərindən başlayaraq, birinci, ikinci dünya

müharibələrindən sonra mühacirət ediblər. Müxtəlif cəmiyyətlər yaradıblar, qəzetlər, jurnallar buraxıblar. Hansı ki, həmin adamların taleləri barədə indiyə qədər heç kim maraqlanmır.

Onların çoxu artıq qocalıb ölüb. Ancaq heç kim bilmir ki bunlar kimdir, nəçidir, harada yaşayıblar, nə işlərlə məşğul olublar.

70-ci illərdən sonra Cənubi Azərbaycandan gedən tələbələr əsasən İspaniyada, Almaniyada, İngiltərədə çoxluq təşkil edirlər. Onlar Azərbaycan kültür dərnəkləri, siyasi, mədəni cəmiyyətlər yaradıb, qəzet və jurnallar buraxırlar. Almaniyada və İngiltərədə yaşayan tələbələr birgə "21 Azər" və "12 Şəhrivar" jurnalını nəşr edirlər. 1985 – 1986 –cı illərdən etibarən bu cəmiyyətlərin sayı sürətlə artıb. Hazırda Avropada təxminən 36 müxtəlif Azərbaycan kültür cəmiyyəti var. Onların da başlıca məqsədi xaricdə yaşayan Azərbaycanlılar arasında dilimizi, mədəniyyətimizi, incəsənətimizi qoruyub saxlamaq və bunları başqa millətlərə da tanıtmaqdır.

## "QARABAĞ TƏŞƏBBÜSÜ" TƏŞKİLATI
## (Berlin)

Son illərdə Azərbaycan torpaqlarına edilən erməni təcavüzü ilə əlaqədar Almaniyada yaradılan ictimai siyasi və milli mədəni təşkilatlardandır.

Bu təşkilatın ən ümdə vəzifəsi Almaniyada, eləcə də Avropanın digər ölkələrində erməni azərbaycanlı münaqişəsi ilə bağlı hadisələr barədə həqiqətləri yaymaq və təbliğ etməkdir. Bunun üçün təşkilatın üzvləri bütün imkanlardan istifadə edir. Almaniyada yaşayan soydaşlarımızın mənəvi və maddi yardımlarına arxalanırlar.

Tədbirlər keçirir, əyani təbliğ vasitələrindən istifadə edirlər.

İyun ayının əvvəllərində Berlində fəaliyyət göstərən erməni cəmiyyətləri Yuxarı Qarabağ erməniləri ilə həmrəylik tədbiri keçirmişlər. Həmin tədbir zamanı "Qarabağ təşəbbüsü" təşkilatının üzvləri Azərbaycan Respublikasının Almaniyadakı səfirliyin köməyi ilə hal-hazırda Azərbaycanda gedən müharibə haqqında Berlinin sakinlərinə obyektiv məlumat verəcək sənədlər yaymışlar. Bunlar əsasən erməni təcavüzkarlarının Azərbaycan torpaqlarında törətdikləri vəhşilikləri təsdiq

edən broşura və kitablardır. Alman dilində hazırlanmış bu materiallar ermənilərin tədbir keçirdikləri binada və digər yerlərdə paylanmışdır.

## "AZƏRBAYCAN KÜLTÜR OCAĞI"
## (Bonn)

Avropa ölkələrində geniş və ardıcıl fəaliyyət göstərən milli mədəniyyət mərkəzlərimizdən biri Almaniyanın paytaxtı Bonn şəhərindəki "Azərbaycan Kültür Ocağı"dır.

Uzun illərdi ki, bu cəmiyyətə istedadlı jurnalist, şair, rəssam və naşir, doktor Nürrəddin Qərəvi rəhbərlik edir. Cəmiyyət 1984-cü "Ana dili" adlı qəzet nəşr edir (redaktoru İ.Qərəvidir).

"Azərbaycan Kültür Ocağı"nın çoxsahəli fəaliyyəti bizim mədəniyyətimizin, ədəbiyyatımızın təkcə Almaniyada deyil, Avropanın bir sıra digər ölkələrində də yayılmasına, təbliğinə köməklik göstərmişdir. Artıq bir neçə ildir ki, bilavasitə N.Qərəvinin təşəbbüsü ilə Bonn şəhərində Azərbaycan dilində xüsusi məktəb açılmışdır. Bu məktəbdə ilk növbədə N.Qərəvinin hazırladığı "Əlifba" kitabı əsasında dərs keçilir. Bütün xərclər Cəmiyyətin və bilavasitə N.Qərəvinin şəxsi vəsaitləri hesabına ödənilir.

"Azərbaycan Kültür Ocağı" xeyli milli ədəbiyyat nümunələri nəşr etdirmiş, Azərbaycan musiqisinin ən yaxşı nümunələrinin Almaniyada yaşayan soydaşlarımız arasında kasetlər, vallar şəklində çoxaldılıb yayılmasına nail olmuşdur.

N.Qərəvi dəfələrlə Azərbaycanda "Azərbaycan Kültür Ocağı" ilə Azərbaycanın müxtəlif elm və mədəniyyət idarələri ilə əməkdaşlıq barədə söhbətlər aparmış, konkret tədbirlər həyata keçirilmişdir.

"Azərbaycan Kültür Ocağı"nın üzvləri tez-tez Avropanın müxtəlif ölkələrində yaşamış soydaşlarımızla görüşüb, birgə mədəni tədbirlər həyata keçirməyə səy edirlər.

1989-cu ildə bu cəmiyyət tanınmış rəqs mütəxəssisi, Azərbaycan İncəsənət Universitetinin professoru Hüseynağa Hüseynovu Bakıdan Bonna dəvət etmiş, təkcə özlərinin deyil, ümumiyyətlə o vaxtkı Almaniya Federativ Respublikasında yayılan Azərbaycan milli rəqs qruplarının ifaçılıq sənətinin məharətini daha da artırmağa nail olmuşlar. Professor

H.Hüseynovun AFR-ə səfəri bir neçə ay davam etmişdir. Bu müddət ərzində görkəmli rəqs mütəxəssisi Bonndan başqa Qərbi Berlində, Hamburqda, Düsseldorfda və başqa şəhərlərdəki Azərbaycan milli rəqs qrupları ilə də yaradıcılıq işi aparmışdır.

## “QARABAĞ” KOMİTƏSİ
## (Bonn)

Azərbaycandakı həmvətənləri ilə yaxından əlaqə saxlamaq məqsədi ilə doğma Vətəndən uzaqlarda yaradılmış Xeyriyyə təşkilatlarında biri Almaniyada 1992-ci ilin əvvəllərində fəaliyyətə başlamış “Qarabağ” komitəsidir. Onu yaradanlar əsasən Cənubi Azərbaycandan olan mühacirlərdir.

“Qarabağ”a Məsud Pənahi başçılıq edir.

Xocalı faciəsindən sonra “Qarabağ” komitəsini üzvləri Bonndakı Rusiya səfirliyi qarşısında piketlər düzəltmiş, ona etiraz məktubu təqdim etmişdilər. Onlar həmçinin vərəqələr də buraxmışlar.

“Qarabağ” komitəsi dəfələrlə Azərbaycan Müdafiə Nazirliyinə maddi yardım və dərman, tibb ləvazimatı göndərmişdir. Komitə əsasən Almaniyada Azərbaycan haqqında həqiqətləri yaymaq, Qarabağ hadisələri barəda düzgün, obyektiv məlumatları alman ictimaiyyətinə çatdırmaq, disskusiyalar keçirmək, milli mədəniyyətimizi təbliğ etmək məqsədi güdür. Komitə ötən ilin  yazından etibarən Almaniya televiziyasında “Fray” (“Azad”) adlı kanal açıb. Bu kanal vasitəsilə soydaşlarımız Azərbaycan Respublikasının həyatına, Qarabağ hadisələrinə dair məlumatları yaymaqa cəhd göstərirlər.

“Qarabağ” komitəsinin başçısı ötən il Bakıda qonaq olmuşdur.

## “ALMAN - AZƏRBAYCAN” CƏMİYYƏTİ
## (Düsseldorf)

“Alman-Azərbaycan Cəmiyyəti” Azərbaycan diasporunun Düsseldorf şəhərində yaşayan bir sıra tanınmış nümayəndələrinin təşəbbüsü ilə 1991-ci ilin sentyabr ayında  yaradılmışdır. Cəmiyyətin sədri dünya miqyasında

tanınmış cərrah professor Doktor Harmen van Lssendir. Bu cəmiyyətin həm də Bakıda nümayəndəliyi vardır. Nümayəndəliyin başçısı Çingiz Abdullayevdir.

“Alman-Azərbaycan cəmiyyəti”nin yaradılmasında Düsseldorfda yaşayan azərbaycanlı həkim Ağabəy Azərbaycani və onun həyat yoldaşı Kristina Azərbaycaninin boyük rolu olub.

“Alman-Azərbaycan cəmiyyəti”nin təşəbbüsü ilə Düsseldorflu həkimlər dəfələrlə Azərbaycana gəlmiş, humanitar yardımlar gətirmişlər. Bunların içərisində çoxlu tibbi ləvazimat, kompüter rentgen apparatı, tibbi preparatlar olmuşdur.

Dəfələrlə Düsseldorfdan təcrübəli həkimlər Azərbaycana gəlmiş, Qarabağda yaralanmış Milli Ordu əsgərlərinə isə praktik yardım göstərmişlər.

“Alman-Azərbaycan cəmiyyəti” xalqlarımız və ölkələrimiz arasındakı əlaqələrin, münasibətlərin möhkəmlənməsində böyük rol oynayır.

1992-ci ilin sentyabrında Bakıda (28 may küçəsi “Alman-Azərbaycan cəmiyyəti”nin yaradılmasının ildönümü münasibətilə dostluq gecəsi keçirilmişdir. Görüşü cəmiyyətin Düsseldorfdakı və Bakıdakı nümayəndəlikləri təşkil etmişdi. “Alman-Azərbaycan cəmiyyəti”nin ünvanına respublikamızın elm və ictimai təşkilatlarının, müxtəlif birliklərin təbriknamələri oxunmuş və təqdim edilmiş, “Alman-Azərbaycan cəmiyyəti”nin yeni üzvləri seçilmişlər. Cəmiyyətin yeni üzvlərinə Azərbaycan Respublikasının keçmiş prezidenti Ə.Elçibəyə, tanınmış cərrah, professor N.Rzaeva, milli qəhrəman S.Məmmədova, Azərbaycan EA Milli Münasibətlər İnstitutunun direktoru V.Arzumanlıya və başqalarına diplomlar təqdim olunmuşdur.

“Alman-Azərbaycan cəmiyyəti”nin prezidenti H.Fon Lessen, həmin cəmiyyətin vitse-prezidenti A.Azərbaycani ABŞ-ın Azərbaycandakı səfiri R.Mayls, AFR-nin Azərbaycandakı müvəqqəti işlər vəkili Ç.Xunqci də gecəsində iştirak etmişlər.

Almaniyadan gəlmiş qonaqlar respublikamıza “Mersedes” markalı təcili yardım maşını da bağışlamışlar.

Bu ilin aprel ayında “Alman-Azərbaycan cəmiyyəti”nin vitse-prezidenti doktor Ağabəy Azərbaycani Kəlbəcər faciəsi ilə əlaqədar

Gəncəyə gəlmiş, özü ilə xeyli miqdarda dava-dərman gətirmiş və qaçqınlara 1 milyon rubl nəğd pulla yardım göstərmişdir.

“Alman-Azərbaycan cəmiyyəti” Bakıda qadınlar üçün kosmetika salonu yaratmaq, dərman preparatları hazırlayan xüsusi laboratoriya açmağı planlaşdırır.

## “AVROPA-TÜRK İSPANİYA KÜLTÜR FEDERASİONU” (Frankfurt)

“Avropa-Türk İslam Kültür Federasionu”nun əsas məqsədi türk xalqlarının dilini, məişətini, ədəbiyyatını, folklorunu qoruyub saxlamaq və yetişməkdə olan nəslə çatdırmaqdır. Cəmiyyətin struktur quruluşunda bölmələr yaradılmışdır. Onlardan birində cəmiyyətin “İnter-akademiya”sı fəaliyyət göstərir ki, burada bütün sahələr üzrə ən bacarıqlı mütəxəssislər toplanmışlar. Onların məqsədi dünyanın nümunəvi xasiyyətlərindən, nailiyyətlərindən bacarıqla istifadə etməkdir. Federasionun əlaqələri olduqca genişdir. Onun Azərbaycanda da nümayəndələri vardır. Onlara rəssam Şahlar Abdullayev rəhbərlik edir. 1992-ci ilin martından o, eyni zamanda “Avropa-Türk İslam Kültür Federasionu“nun türk və müsəlman dövlətləri üzrə baş nümayəndəsi təyin olunmuşdur. Federasionun Azərbaycan nümayəndələri öz fəaliyyətlərinə əsasən respublikamız haqqında Almaniyaya informasiya göndərməklə başlamışlar. Bütün xəbərlər ilk əvvəl Frankfurta, oradan isə dünya ölkələrinin xəbərlər birliyinin mərkəzi olan Bonn şəhərinə verilir. Ən vacib xəbərlər isə Almaniyada, eləcə də Belçikada Qarabağda gedən ədalətsiz müharibə ilə bağlı etiraz mitinqləri keçirilmişdir. Cəmiyyət öz hesabına müxtəlif alman qəzetlərində səhifələr alıb Qarabağda baş verən hadisələri bütün açıqlığı ilə işıqlanmışdır.

## “AZƏRBAYCAN MƏDƏNİ ƏLAQƏLƏR CƏMİYYƏTİ” (Frankfurt)

“Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti” Almaniyanın Frankfurt şəhərində yaradılmışdır. Cəmiyyətin əsasını onun sədri Firudin Pərvizniya qoymuşdur. Uzun illər Almaniyada yaşayan F.Pərvizniya çoxsahəli fəaliyyəti ilə geniş şöhrət tapan “Bao konsent” şirkətinin prezidentidir. Şirkət əsasən müxtəlif tikinti-quraşdırma işləri, köhnə, tarixi binaların bərpası və təmiri ilə məşğuldur. Şirkət həm də dünya rəssamlarının əsərlərinin sərgisinin təşkili ilə məşğul olur. “Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti” bir sıra mədəni tədbirlərin keçirilməsini təşkil etmişdir. Cəmiyyətin sədri Bakıda olmuş, burada başçılıq etdiyi şirkətin nümayəndəliyinin açılması ilə əlaqədar danışıqlar aparmışdır. Cəmiyyət soydaşlarımızın Azərbaycanla əlaqələrin genişlənməsinə çalışır.

## “TÜRKDİLLİ XALQLARIN ƏDƏBİYYATI VƏ KÜLTÜRÜNÜ TANIMA MƏRKƏZİ” (Frankfurt)

Almaniya Türk xalqlarının o cümlədən azərbaycanlıların çox yaşadığı şəhərlərdən biri Frankfurtdur. Bu şəhərdə yaradılmış ən böyük milli mədəniyyət cəmiyyətlərindən biri “Türkdilli xalqların ədəbiyyatı və kültürünü tanıma mərkəzi” adlanır. Mərkəz türk və Azərbaycan milli bölmələrinin fəaliyyəti xüsusilə diqqətəlayiqdir.

1991-ci ildən etibarən Mərkəz “Dağyeli Ferlaq” nəşriyyatının sahibi İldırım Dağyeli ilə birlikdə Azərbaycan ədəbiyyatının ən maraqlı nümunələrinin alman dilinə tərcümə olunub nəşr edilməsində xeyli iş görmüşdür. Xüsusilə “Azərbaycan Ədəbiyyatı” seriyası adı altında nəşr olunan kitabların müasir Azərbaycan nəsrinin Almaniyada yayılması və təbliği işində əhəmiyyəti böyükdür.

“Türkdilli xalqların ədəbiyyatı və kültürünü tanıma mərkəzi” müxtəlif türk ölkələrinin, o cümlədən Azərbaycanın tanınmış ədəbiyyat xadimlərini Almaniyaya dəvət edir, onların əsərlərinin oradakı soydaşlarımız və alman oxucuları arasında tanınmasına köməklik göstərir.

## “AZƏRBAYCAN-ALMAN KÜLTÜR OCAĞI” (Hamburq)

Almaniyada fəaliyyət göstərən milli mədəniyyət mərkəzlərindən biri də Hamburq şəhərindəki "Azərbaycan-Alman kültür ocağı"dır. Bu mərkəz bir neçə ildir ki təşkil olunub.

Cəmiyyətin nəzdində "Azərbaycan folkloru" adlı rəqs qrupu vardır. 1990-cı ildən etibarən "Azərbaycan-Alman kültür ocağı" xüsusi teatr qruppası da yaratmışdır. Qısa müddət ərzində bu qruppa klassik Azərbaycan dramaturqlarının bəzi əsərlərinin tamaşalarını hazırlamışlar.

Hamburqdakı Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Nərimandır.

## "AZƏRBAYCAN KÜLTÜR CƏMİYYƏTİ"
## (Köln)

Almaniyanın Köln şəhərindəki "Azərbaycan Kültür Cəmiyyəti" Bakıda 1990-cı il faciəli yanvar hadisələrindən sonra yaranmışdır. Mərkəzin sədri İbrahim Alovdur. Mərkəz öz fəaliyyətinə Bakı hadisələrinə etiraz əlaməti olaraq keçirdikləri mitinq və yürüşlərlə başlamışdır. Bir sıra mədəni kütləvi tədbirlərin hazırlanıb keçirilməsində cəmiyyət fəal iştirak edir. Azərbaycan mədəniyyəti, onun keçmişi və bu günü ilə Almaniya ictimaiyyətinin yaxından tanış olması üçün səmərəli işlər görməyə çalışır. Cəmiyyətin fəal üzvləri vaxtaşırı Azərbaycanda olur, respublikada baş verən demokratik proseslərlə tanış olur, alimlərlə mədəniyyət xadimləri ilə görüşürlər. Azərbaycanın iqtisadi, ictimai-siyasi və mədəni həyatı ilə yaxından tanışlıq cəmiyyətin fəaliyyətinin daha təsirli olmasına kömək edir.

## "ÜFÜQ MƏDƏNİYYƏT OCAĞI"
## (Maynts)

Maynts şəhərində yaradılan "Üfüq Mədəniyyət Ocağı" 1988 -ci ilin fevralından fəaliyyətə başlamışlar. Ocağın üzvləri əsasən azərbaycanlılardır. Bu ocağın təşkilatçıları öz əsas məqsədlərini mədəni

tədbirlərin keçirilməsində, alman və türk dillərinin qısa müddətdə tədrisi kurslarını təşkil etməkdə görürlər.

Maynts şəhəri ilə bakı və Sumqayıt şəhərləri arasında əlaqələrin möhkəmlənməsində də "Üfüq Mədəniyyət Ocağı" yaxından iştirak edir.

## "AZƏRBAYCAN KÜLTÜR CƏMİYYƏTİ"
## (Nürnberq)

"Azərbaycan Kültür Dərnəyi" 1990-cı ilin fevralında yaranmışdır. Dərnəyin təsisindən bir qədər əvvəl Azərbaycanla həmrəylik komitəsi təşkil edilmiş, Bakıda 1990-cı il yanvar faciəsinə həsr olunmuş izdihamlı mitinq keçirilmişdir. Mitinqin iştirakçıları Bakıda törədilən qanlı faciənin günahkarlarını lənətləmişlər. Dərnək fəaliyyatində Nürnberqdə və onun ətrafında yaşayan 18 min azərbaycanlını əhatə etməyə çalışır. Dərnək əsasən təəssübkeş həmvətənlərin maddi yardımı ilə fəaliyyət göstərir.

Dərnəyin sədri Gündüz Varol bütün varlığı ilə Azərbaycana bağlıdır, onun müstəqilliyini, azadlığını düşünən həmvətənimizdir. İstambulda nəşr olunmuş "Lal Başlar" kitabında onun 1985 və 1986-cı illərdə Azərbaycana səfərləri də öz əksini tapmışdır. Kitabda sosialist gerçəkliyi bütün çılpaqlığı ilə göstərilmişdir. 1990-cı il noyabrın əvvələrində İstambulda keçirilmiş Azərbaycan dərnəklərinin Birinci Beynəlxalq konqresində Gündüz Varol Avropa ölkələri üzrə koordinator seçilmişdir.

"Azərbaycan Kültür Cəmiyyəti" Almaniyaya gedən mədəniyyət xadimlərimiz ilə əlaqə yaratmağa çalışır. Azərbaycan incəsənət ustalarının çıxışlarının təşkilində fəallıq göstərir.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

## "AZƏRBAYCAN CƏMİYYƏTİ"
## (Los-Anceles)

Kaliforniyada rəsmi qeydiyyatdan keçmiş "Azərbaycan Cəmiyyəti" yarandığı ilk vaxtlardan öz fəallığı ilə fərqlənir. Cəmiyyətə fars dilində "Radio Sədayi İran" radiostansiyasının əsasını qoymuş, təhsilinə görə vəkil

və “Daad Liqal Meqezin” hüquqi xəbərlərin redaksiya heyətinin üzvü, elmlər doktoru Hüseyn Həqiqi rəhbərlik edir. Cəmiyyətin son vaxtlar gördüyü əməli işlərdən biri Los-Ancelesdə konqresmen Cim Mudi ilə görüşün təşkili və maliyyət yardımıdır. Cəmiyyətin və onun sədrinin son tədbirlərindən biri də “Radio Sədayi İran” radiostansiyasının ABŞ-da yaşayan soydaşlarımız üçün Azərbaycanda geniş ictimai siyasi hadisələri işıqlandırmaqdan ötrü bir saatlıq efir vaxtı təşkil etməsidir.

## “AZƏRBAYCAN CƏMİYYƏTİ”
## (Los-Anceles)

“Azərbaycan Cəmiyyəti” öz ətrafına əsasən Cənubi Azərbaycandan olan soydaşlarımızı birləşdirir. Onun sədri A.Kamanardır. Cəmiyyət ictimai siyasi hadisələrə sirayət etməsi ilə bir o qədər də fərqlənmir. Cəmiyyətin ayrı-ayrı nümayəndələri müxtəlif ümumi ictimai mədəni tədbirlərin həyata keçirilməsində iştirak edirlər.

## “AZƏRBAYCAN EVİ”
## (Los-Anceles)

Los-Anceles şəhərində “Azərbaycan Evi”nin yaradılması məsələsi hələ 1987-ci ilin iyun ayınla irəli sürülmüş, bu münasibətlə şəhərdə yaşayan azərbaycanlıların nümayəndələrinin bir qrupu yığıncaq keçirmişdir həmin iclasda idarə heyəti seçilmişdir. Lakin “Azərbaycan Evi” rəsmi olaraq 1988-ci ilin yanvarından fəaliyyətə başlamışlır. Onun prezidenti doktor Mahmud Zaregeyvanidir. “Azərbaycan Evi”nin təxminən 5 minə yaxın üzvü vardır. Onun üzvləri əsasən həkim, mühəndis, tacir, müəllim, vəkil və başqa peşə sahibləridir. Onların bir çoxlu Cənubi Azərbaycandandırlar. Təşkilatda İrandan, Türkiyədən, Almaniyadan, Çindən, İtaliyadan, Küveytdən, Yunanıstandan da üzvlər vardır.

İctimai təşkilat kimi fəaliyyət göstərən “Azərbaycan Evi” dilimimizin, mədəniyyətimizin, tariximizin oyrənilməsində böyük səy göstərir, vaxtaşırı Los-Ancelesdə Azərbaycan mədəniyyəti gecələri təşkil

edir. Azərbaycandakı demokratik hərəkat, ictimai siyasi dəyişikliklər təşkilatın üzvlərinin diqqət mərkəzindədir.

1990-cı ilin  yanvarında Bakıda baş verən qanlı faciə "Azərbaycan Evi"nin fəallarının da etirazına səbəb olmuşdur. Təşkilatın prezidenti Mahmud Zaregeyvaninin həmin günlərdə "Amerikanının səsi"radiosuna verdiyi mühasibə 64 dildə bütün dünyaya yayılmışdır. 1992-ci il dekabrın 31-də "Azərbaycan Evi"ndə dünya azərbaycanlılarının   həmrəylik günü münasibətilə yığıncaq keçirildi. Yığıncaq Azərbaycan Respublikasının rəhbərliyinə təbrik teleqramları göndərdi. 1993 cü ilin əvvəllərində Bakıda, "Azərbaycan Evi"nin filialı yaradılmışdır. Bakı filialının prezidenti Müdir bəydir.

"Azərbaycan Evi"nin təşəbbüsü ilə 1993 -cü ilin yazından Los-Ancelesin Yüeyels universitetində "Azərbaycan dili" fakültəlsi açılmışdır.

## "TÜRK-AZƏRBAYCAN QRUPU"
## (Los-Anceles)

"Türk-Azərbaycan Qrupu" sayca çox və fəallığı ilə fərqlənən cəmiyyətlərindən biri sayılır. Siyasi hadisələrə fəal münasibət bəsləyən, təşkilatca möhkəm olan "Türk-Azərbaycan Qrupu" türk xalqları arasında sıx birlik, həmrəylik və aməkdaşlıq yaradılmasına çalışır. Qrup Azərbaycan Respublikasına çox səmimi və loyal münasibət bəsləyir, Türkiyə konsulluğunun, Amerika Türk Assosiasiyisanın və digər təşkilatların Azərbaycana köməyinin təşkilində fəallıq göstərir. Qrupun yaxından iştirakı ilə bir sıra türk qəzet və jurnalları, o cümlədən məşhur "Tarkiş tayms" ös səhifələrində Azərbaycanın xarici siyasətinə, ictimai-siyasi həyatına müntəzəm yer verir.

## "AZƏRBAYCAN KÜLTÜR CƏMİYYƏTİ"
## (Los-Anceles)

"Azərbaycan Kültür Cəmiyyəti" Kaliforniyada öz fəallığı ilə fərqlənən, azərbaycanlıları daha çox öz ətrafında birləşdirən cəmiyyətdir. 1991-1992-ci illərdə Cəmiyyətin fəaliyyəti daha mahsuldar və səmərəli

olmuşdur. Azərbaycanda baş verən demokratik proseslər, erməni təcavüzünə qarşı aparılan müharibə məsələləri Cəmiyyətin diqqət mərkəzindədir. Elmlər doktoru, Kaliforniya universitetinin professoru Nairin Tohidi Cəmiyyətlə fəal əməkdaşlıq edir. O, tez-tez Azərbaycan Elmlər Akademiyasının qonağı olur, azərbaycanlı qadınlar haqqında kitab yazır. Onun siyasi fəallığın nəzərə çarpan cəhətlərindən biri də Kaliforniya universitetində keçirilmiş konfransda professor Ovanesyanın çıxışına (Ermənistan Respublikasının sabiq xarici işlər nazirinin atası) cavab çıxışı olmuşdur. Cəmiyyətin fəal iştirakçılarından biri də memar, "Relyif interneşl" təşkilatının üzvü Piruz Xanlıdır. 1993-cü ilin yanvarında o, Bakıya növbəti dava-dərman və cərrahiyyə avadanlığı gətirmişdir.

"Azərbaycan Kültür Cəmiyyəti" Amerikada ilk dəfə olaraq 1993-cü ildən "Azərbaycan" adlı beynəlxalq jurnalın nəşrinə başlamışdır. Jurnalın birinci nömrəsində yazıldığı kimi, onu buraxmaqda əsas məqsəd bütün dünya azərbaycanlıları ilə mədəni, siyasi, ədəbi, təhsil va digər sahələrdə əlaqələr yaratmaqdır. Jurnal latın qrafikalı Azərbaycan əlifbası və ərəb qrafikası ilə ildə dörd dəfə Azərbaycan və ingilis dillərində nəşr olunacaqdır. Jurnalın ilk nömrəsində Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayevlə müsahibə, xalqımızın tarixinə, mədəni həyatına dair materiallar, Cənubi Azərbaycanla bağlı məqalələr, habelə səfirliyimizin müşaviri Ceyhun Mollazadənin 1992-ci ilin aprelində Kopenhagen şəhərində beynəlxalq seminardakı çıxışının mətni verilmişdir. Jurnal ABŞ-da aparıcı inzibati siyasi və tədris müəssisələrinə və oxuculara pulsuz göndərilir.

## "AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MƏRKƏZİ"
## (San-Fransisko)

San-Fransiskoda fəaliyyət göstərən, "Azərbaycan Mədəniyyət Mərkəzi" 1989-cu ilin ortalarında yaradılmışdı. Mərkəzin sədri Əkbər Bayramlıdır. San-Fransisko şəhərində 20 mindən çox azərbaycanlı yaşayır. Mərkəzin iki yüz nəfər daimi üzvi, mindən yuxarı isə Mərkəzlə qeyri-sabit də olsa, əlaqə saxlayanı vardır. Mərkəz təkcə azərbaycanlılara deyil, həm də amerikalı dostlarına xidmət edir. Yerli radio ilə həftədə bir dəfə "Azərbaycanın səsi" adlı musiqili, şerli, nəğməli proqram səslənir. Həmin

proqram vasitəsilə Azərbaycanın mədəniyyəti, ədəbiyyatı da geniş təbliğ olunur. Erməni təcavüzkarlarının Azərbaycan torpağında törətdikləri qanlı müharibə, onun əsas səbəbləri, erməni fitnəkarları, onların havadarları barədə Mərgəz həqiqəti yaymaq üçün səy göstərir, Azərbaycan barədə xaricdə yayılan uydurmaları, yanlış informasiyaları ifşa etmək sahəsində mümkün olan bütün vasitələrdən istifadə etməyə çalışır.

## “AZƏRBAYCAN MƏDƏNİYYƏT OCAĞI”
## (Vaşinqton)

“Azərbaycan Mədəniyyət Ocağı”1989-cu ilin fevralında Vaşinqtonda təsis olunmuşdur. Ocağın 7 nəfərdən ibarət idarə heyəti vardır. Üzvlərinin sayı 500 nəfərdən çoxdur. Ocaq özünün təşkil etdiyi tədbirlərdən və üzvlük haqqı kimi toplanılan pulla maliyyələşdirilir. Ocağın əsas məqsədi Azərbaycan mədəniyyətini, tarixini, incəsənətini öyrənmək və həmvətənlərimiz, həm də amerikalılar arasında təbliğ etməkdir. Ocağın təşəbbüsü və yaxından iştirakı ilə milli bayramlarımız qeyd olunur, şer gecələri, digər mədəni-kütləvi tədbirlər keçirilir. Ocaq Azərbaycan və fars dillərində “Dirilik” adlı qazet nəşr edir. 1000 ədəd tirajla 16 səhifəlik bu qəzet ayda bir dəfə buraxılır. Qəzetin əsas mövzusu Şimali və Cənubi Azərbaycanın mədəniyyətinə, dilinə, adət-ənənələrinə, ədəbiyyatına və incəsənətinə həsr olunur. Ocağın həvəskarlardan təşkil olunmuş “Savalan” adlı mahnı və rəqs ansamblı vardır.

## “BAKILI ASSOSİASİYASI”
## (Nyu-York)

“Bakılı Assosiasiyası” Bakıda fəaliyyət göstərən “Bakılı” Beynəlxalq Mədəniyyət Cəmiyyətinin nizamnaməsinə uyğun olaraq öz sıralarına Bakını sevən və onun tərəqqisi üçün nə isə bir iş görməyə hazır olan hər bir kəsi milliyətindən, dini etiqadından asılı olmayaraq qəbul edir. Öz fəaliyyətinə yeni başlayan Assosiasiya Nyu-Yorkda “Bakı evi” Bakı və Azərbaycan haqqında mühazirələr təşkil etməyi, dostluq görüşləri keçirməyi, Bakıdan gələn ictimai xadimlərin, mədəniyyətimizin nümayəndələrinin çıxışlarını təşkil etməyi nəzərdə tutur.

## "AZƏRBAYCANIN AMERİKALI DOSTLARI" CƏMİYYƏTİ
## ( Vircinya)

Amerika Birləşmiş Ştatlarının Virciniya ştatında 1993-cü ilin yanvarından fəaliyyətə başlayan "Azərbaycannın Amerikalı Dostları Cəmiyyəti" öz ətrafında əsasən Amerika Birləşmiş Ştatlarının vətandaşlarını birləşdirir. Cəmiyyət Azərbaycan Respublikası haqqında əsil həqiqəti söyləmək, erməni millətçilərinin respublikamızda törətdikləri vəhşilikləri, Azərbaycan torpaqlarını işğal etməsi barədə bütün həqiqətləri amerikalılara çatdırmağı öz qarşısına məqsəd qoymuşdur.

## "AZƏRBAYCAN CƏMİYYƏTİ"
## (Nevarq)

Nevarq şəhərində fəaliyyət göstərən "Azərbaycan Cəmiyyəti"nin üzvləri sayca az olsa da, öz imkanları daxilində xeyli iş görürlər. Cəmiyyətin yaranmasında əsas məqsəd milli adət-ənənələri yaşatmaqdır. Cəmiyyətin nəzdində türk dili məktəbi təşkil edilmişdir. Məktədə təkcə azərbaycanlı uşaqları deyil, digər türk xalqları numayəndələri də oxuyurlar. Məktəb öz fəaliyyətində yalnız türk dilinin öyrənilməsini deyil, həmçinin digər xalqlarla mədəni əlaqələri möhkəmlətmək, milli ənənələri yaşatmaq və inkişaf etdirməyi də nəzərdə tutur.

Cəmiyyətin şəhərdə öz məscidi və böyük torpaq sahələri vardır.

Cəmiyyət bütün müsəlman xalqlarının yaratdıqları cəmiyyətlərdə də sıx əlaqə saxlamağa çalışır.

Nevarq şəhərindəki bu cəmiyyət bütünlüklə ABŞ-da yaradılan ilk Azərbaycan mədəniyyət ocağıdır.

## "VƏTƏN" AMERİKA-AZƏRBAYCAN MƏDƏNİ MƏRKƏZİ
## (Nyu-York)

“Vətən” Amerika Azərbaycan Mədəni Mərkəzi 1988-ci ilin sentyabrında Nyu-York şəhərində yaradılmışdır. Mərkəzin təsis yığıncağında 300 nəfər həmvətənimiz müxtəlif ölkələrin səfirliklərinin əməkdaşları şəhər bələdiyyə idarəsinin nümayəndələri iştirak etmişlər. Məşhur Azərbaycan neft sahibkarı Şəmsi Əsədullayevin qızı Züleyxa Əsədullayeva Veber bu mərkəzin məsul katibidir. Mərkəzin təsis olunmmasında əsas məqsəd Azərbaycanla sıx əlaqələr yaratmaq, milli tariximizi, mədəniyyətimizi, musiqimizi, ədəbiyatımızı amerikalılara tanıtmaqdır. “Vətən” Mərkəzin ilk sədri mərhum Rufa Əzizova Odyurdlu olmuşdur.

## BELORUS

### "QOBUSTAN" AZƏRBAYCAN MƏDƏNİYYƏT CƏMİYYƏTİ (Minsk)

Belorus torpağında yaşayan ən təşəbbüskar soydaşlarımız “Qobustan” adlı milli mədəniyyət mərkəzin yaradaraq, bu şərqi slavyan ölkəsində həm xeyriyyəçilik, həm də mədəniyyətimizin təbliği sahəsində geniş fəaliyyət göstərirlər.

Cəmiyyətin sədri Elxan Kərimovdur. Müxtəlif peşə və sənət sahiblərini birləşdirən “Qobustan” cəmiyyəti bir neçə ildir ki, yaradılıbdır.

Cəmiyyətin üzvləri 1990-cı ilin qanlı yanvar hadisələri, Xocalı faciəsi zamanı Minsk şəhərində piket düzəltmiş, Belorusun paytaxt sakinlərinə Azərbaycan torpağına edilən təcavüzün iç üzünü aşkarlayan fotoşəkillər və sənədli lentlər göstərmişlər.

“Qobustan” cəmiyyəti Belorus Respublikasında Azərbaycanla bağlı keçirilən mədəni və ictimai tədbirlərdə həmişə yaxından iştirak edir, köməklik göstərir.

## BELÇİKA

### “AZƏRBAYCAN KÜLTÜR EVİ”

**(Brüssel)**

"Azərbaycan Kültür Evi"nin məqsədi Azərbaycan tarixini, mədəniyyətini, iqtisadiyyatını təbliğ etməkdən, iş adamlarının, alimlərin, elm, mədəniyyət və incəsənət xadimlərinin, jurnalistlərin Belçikaya qarşılıqlı səfərini təşkil etməkdən, Belçikaya gələn həmvətənlərimizə köməklik göstərməkdən ibarətdir. Cəmiyyətin sədri Bülənd Qurcam 1990-cı ilin faciəli yanvar günlərində Bakıda olmuş və həmin hadisələr haqqında foto şəkilləri bütün dünya qəzetlərinə çatdırmış və Fransa televiziyasında nümayiş etdirmişdir. Xüsusən həmin hadisələr barədə həqiqətin Belçika ictimaiyyətinə çatdırılmasında Cəmiyyət xeyli səmərəli iş aparmışdır. Azərbaycanı dünyaya tanıtdırmaq sahəsində Cəmiyyət səmərəli fəaliyyət göstərməkdədir.

## QAZAXISTAN

### "TURAN" MƏDƏNİYYƏT MƏRKƏZİ
### (Alma-Ata)

"Turan" Mədəniyyət Mərkəzi 1992-ci ilin iyun ayından fəaliyyətə başlamışdır. Prezidenti Müseyib Novruzovdur. Qazaxıstanda 100 mindən çox soydaşlarımız yaşayır. Onların 30 mindən çoxu Alma-Ata şəhərində məskunlaşmışdır. Mərkəz öz fəaliyyətini əsasən soydaşlarımızın milli-mədəni dəyərlərimizin qorunub saxlanılmasına, Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatı ilə əlaqələrin möhkəmlənməsinə yönəltmişdir.

Xüsusən Azərbaycanın erməni təcavüzünə qarşı apardığı ağır müharibə şəraitində Mərkəzin yaxından iştirakı və rəhbərliyi ilə Qazaxıstanda yaşayan soydaşlarımız respublikaya maddi kömək göstərirlər. Alma-Ata, Çu və Cambul şəhərlərindən Qarabağa xeyli maddi yardım göndərilmişdir.

"Turan" Mədəniyyət Mərkəzi öz əsas vəzifələrindən birini soydaşlarımızın öz ana dilini unutmamasına kömək etməkdə görür. Bu məqsədlə iki orta məktəbdə Azərbaycan şöbəsi açılmışdır. Qazaxstan pedaqoci İnstitutunda Qazax Azərbaycan şöbəsi yaradılmışdır. Mərkəz öz

əsas vəzifələrindən birini də xarici ölkələrdə yaranan azəbaycanlılarla əlaqə yaratmaq da görür.

## “NATƏVAN” AZƏRBAYCAN MƏDƏNİYYƏT CƏMİYYƏTİ
## (Uralsk)

“Natəvan” Azərbaycan Mədəniyyət Cəmiyyəti 1992-ci ilin mayın 19-da yaradılmışdır.Cəmiyyətin təsis konfransında onun nizamnəməsi qəbul olunmuşdur. Cəmiyyətin yaranması elan edilmişdir. Cəmiyyətin sədri Vəlixan Məmmədəliyevdir. Qazaxstanın Uralsk şəhərində Uralsk vilayətində 1700 nəfərə yaxın azərbaycanlı yaşayır. Cəmiyyətin məqsədi həmvətənlərimizi bir mərkəz ətrafında birləşdirmək və onun vasitəsilə qazaxları, rusları və başqa millətləri Azərbaycanın tarixi, incəsənəti, mədəniyyəti ilə tanış etmək, respublikamız haqqında bütün həqiqəti orada baş verən ictimai siyasi hadisələri mahiyyətini başa salmaqdır. Cəmiyyətin nəzdində Ağsaqqalar şurası yaradılmışdır. Cəmiyyətin Uralskda fəaliyyət göstərən digər xalqların milli mərkəzləri ilə sıx əlaqədə işləməyə çalışır.

# QIRĞIZISTAN

## “AZƏRBAYCANÇILAR”ASSOSİASİYASI
## (Bişkek)

Qırğızıstanın payxtaxtı Bişkek şəhərində yaradılmış və rəsmi qeydiyyatdan keçmiş “Azərbaycançılar”Assosiasiyası öz fəaliyyətinə 1992-ci ilin payızından başlamışdır. Qırğızıstanda 20 min azərbaycanlı yaşayır. Assosiasiyanın rəhbərliyinə daxil olan soydaşlarımız ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayırlar. Assosiasiya Qırğızıstanda yaşayan azərbaycanlıların fəallığın artırılması, Azərbaycanla Qırğızıstan arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsi və möhkəmlənməsi sahəsində fəaliyyətini təkmilləşdirir.

## “AZƏRİ”MƏDƏNİYYƏT MƏRKƏZİ

**(Bişkek)**

"Azəri" Mədəni Mərkəzi 1992-ci ilin axırlarından fəaliyyətə başlamışdır. Mərkəzin sədri A.Xəlilovdur. Mərkəz öz əsas vəzifəsini Qırğızıstanda, xüsusən Bişkekdə yaşayan soydaşlarımıza kömək etməkdə, Azərbaycanın iqtisadi, ictimai-siyasi və mədəni həyatı barədə müntəzəm məlumat verməkdə, azərbaycan və qırğız xalqları arasında dostluq əlaqələrini və əməkdaşlığı möhkəmləndirməkdə görür.

## DANİMARKA

### "DANİMARKA-AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİ" (Kopenhagen)

Kopenhagen şəhərindəki "Danimarka-Azərbaycan Dostluq Cəmmiyyəti" Danimarkada yaşayan azərbaycanlılar arasında geniş ictimai siyasi və mədəni tədbirlərin keçirilməsində səmərəli fəaliyyət göstərir. Bakıda 1990-cı il yanvar faciəsi ilə əlaqədar Kopenhagendə azərbaycanlıların etiraz mitinqlərinin, nümayişlərin və yürüşlərin təşkilində Cəmiyyətin üzvləri fəal iştirak etmişlər. Cəmiyyətin fəaliyyətində mədəni tədbirlər əsas yer tutur. Cəmiyyətin nəzdində yaradılmış "Dədə Qorqud" ansamblının üzvləri Azərbaycan musiqisinin, xalq yaradıcılığının təbliğində xüsusi fəallıq göstərir. Ansamblın üzvü aşıq Abbas Eloğlu öz geniş fəaliyyəti ilə nəinki Danimarkada, hətta digər Avropa ölkələrində yaşayan soydaşlarımız arasında da sazla-sözlə Azərbaycan musiqisini təbliğ edir. Abbas Eloğlu Azərbaycan Aşıqlar Birliyinə üzv qəbul edilmişdir.

"Danimarka-Azərbaycan Dostluq Cəmiyyəti"nin ən fəal üzvlərindən olan Ağayi Kərim Cəmili bu yaxınlarda Bakıda qonaq olmuş, özü şəxsən 100 min ədəd birdəfəlik şpris gətirmiş, Kəlbəcər qaçqınları üçün 50 min manat pul köçürmüşdür.

Cəmiyyət Kopenhagendə ana dili kursları açmışdır.

# ESTONİYA

## “ESTONİYA-AZƏRBAYCAN CƏMİYYƏTİ”
## (Tallin)

“Estoniya-Azərbaycan Cəmiyyəti” Azərbaycandan xaricdə yaşayan həmvətənlərimizin yaratdıqları ilk cəmiyyətlərdən biridir. Cəmiyyət yarandığı ilk günlərdən Azərbaycan və Estoniya xalqlarının tarixi dostluq əlaqələrinin davamçısı kimi fəaliyyətə başlamışdır. Cəmiyyət Estoniya xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin nəzdində yaranmışdır. Cəmiyyətə Ağsaqqallar şurası rəhbərlik edir. Cəmiyyətin sədri Fərhad Heydərli Tallində “Ocaq” Azərbaycan Mədəniyyət Cəmiyyətinin əsasını qoyanlardan biridir. Estoniya İncəsənət universitetinin ilk azərbaycanlı məzunudur. 1988-1992-ci illərdə siyasi xidmətlərinə görə Estoniya siyasi ensiklopediyasına düşən ilk azərbaycanlıdır. 1990-cı ildən Azərbaycan Xalq Cəbhəsinin rəsmi nümayəndəsi, 1992-ci ilin mayından isə Azərbaycan Respublikasının Estoniyada səlahiyyətli nümayəndəsidir. 1990-cı ilin noyabrında azərbaycanşünasların İstambulda keçirilən ümumdünya konqresində iştirak etmişdir.

“Estoniya-Azərbaycan Cəmiyyəti” respublikamızda baş verən ictimai-siyasi hadisələrin mahiyyətini, demokratik proseslərin xüsusiyyətlərini istər Estoniyada yaşayan soydaşlarımız, istərsə də Estoniya ictimaiyyəti arasında geniş təbliğ etməyə çalışır, Cəmiyyətin üzvləri Estoniyada çıxan mətbuat səhifələrində, televiziya və radio vasitəsilə Azərbaycan haqqında informasiya blokadasının yarılmasına xüsusi diqqət yetirirlər. Xocalı faciəsinin baş verdiyi günlərdə Cəmiyyət yerli və xarici jurnalistlərin iştirakı ilə mətbuat konfransı keçirməyə nail olmuşdur. Konfransın gedişi böyük imkanlara malik olan, bütün Skandinaviya ölkələrinə translyasiya olunan Estoniya televiziyasında göstərilmişdir. Estoniya Respublikasının paytaxtında Türkiyənin yardımı ilə məscidin tikilməsi kimi xeyirxah işin görülməsində, Estoniya-Azərbaycan Cəmiyyəti" də geniş təşkilatçılıq fəaliyyəti göstərir. Tikiləcəg məscid milli ənənələrimizin qorunub saxlanmasında və soydaşlarımızın ünsiyyətində mühüm rol oynayaçaqdır. Cəmiyyət öz fəaliyyətində Azərbaycan və Estoniya arasında iqtisadi, siyasi və mədəni əlaqələrin

genişlənməsinə, xalqlarımızın arasında tarixi dostluğun möhkəmlənməsinə çalışır.

## “OCAQ”AZƏRBAYCAN MƏDƏNİYYƏTİ CƏMİYYƏTİ
## (Tallin)

“Ocaq” Azərbaycan Mədəniyyəti Cəmiyyəti keçmiş sovet respublikaları ərazisində azərbaycanlıların yaratdıqları ilk mədəni cəmiyyətlərdən biridir. Estoniyada 1200 nəfərdən çox azərbaycanlı yaşayır, onların əksəriyyəti respublikanın paytaxtı Tallin şəhərində məskunlaşmışdır. “Ocaq” Azərbaycan Mədəniyyəti Cəmiyyətinin təsis yığıncağı 1989-cu ilin yanvarında Tallin şəhərində keçirilmişdir. Cəmiyyət Estoniya Mədəniyyət Fondu nəzdində fəaliyyət göstərir və Milli-Mədəni Cəmiyyətlər Assosiasiyasına daxildir. Cəmiyyətə idarə heyəti rəhbərlik edir. Yarandığı ilk gündən Cəmiyyətə Niyazi Hacıyev sədrlik edir. Cəmiyyətin “Ocaq” adlı qəzeti 1989-cu ilin dekabrından ayda bir dəfə nəşr olunur. Qəzet Cəmiyyətin məqsədi, gördüyü işləri, onun fəaliyyətinin əsas istiqamətləri haqqında məlumat verir. Azərbaycan oxucuları qəzetin səhifələrində Cəmiyyətin fəaliyyəti, Estoniyada yaşayan soydaşlarımız, onların həyatı, eyni zamanda Estoniyanın ictimai-siyasi mühiti ilə tanış olurlar.

“Ocaq” Azərbaycan Mədəniyyəti Cəmiyyəti ilk gündən Estoniyanın ictimai-siyasi həyatına fəal qoşulmuş, respublikada baş verən bütün mühüm hadisələrdə, Estoniyada gedən demokratikləşmə hərəkatında yaxından iştirak edir. Cəmiyyətin başlıca məqsədi Azərbaycan və Estoniya xalqları arasında mədəni, iqtisadi, sosial sahədə körpü yaratmaq, estonların və azərbaycanlıların bir-birini yaxından tanımasına, dostlaşmasına kömək etməkdir. Cəmiyyət Azərbaycan və Estoniya mədəni əlaqələrinin, dostluq münasibətlərinin qədimliyinə əsaslanaraq öz fəaliyyətini genişləndirir. Hələ keçən əsrin axırlarında Estoniyanın Tartu şəhərində azərbaycanlı tələbələrin Cəmiyyəti, əsrimizin əvvəllərində isə “Bakı Eston Cəmiyyəti” fəaliyyət göstərmşdir. “Ocaq” Cəmiyyəti bu tarixi ənənələri yeni şəraitdə inkişaf etdirməyə çalışır. Cəmiyyət Azərbaycanın milli bayramlarını Azərbaycan Demokratik Respublikasının yaranması gününü, Novruz

bayramını Tallində yaşayan azərbaycanlılarla, estonlarla və digər xalqların nümayəndələri ilə birlikdə qeyd edir. Tallində Azərbaycan mədəniyyəti günlərin keçirilməsində, Azərbaycan kitablarının satışının təşkil olunmasında və bir sıra  başqa tədbirlərin hazırlanıb keçirilməsində Cəmiyyət xeyli iş görmüşdür. Cəmiyyət Estoniyada yaşayan azərbaycanlılar üçün eston dilinin tədrisi kursu açmışdır.

“Ocaq” Camiyyəti öz fəaliyyətində Azərbaycanda baş verən demokratik proseslər, erməni təcavüzkarlarının xalqımıza qarşı törətdikləri cinayətlər haqqında obyektiv məlumatları eston ictimaiyyəti arasında geniş yayır. Cəmiyyət istər Alma-Ata, Tbilisi, Bakı, istərsə də Riqa və Vilnüs faciələrinə və onları törədənlərə qarşı öz etiraz səsini ucaltmışdır. 1990-cı il Bakıda yanvar faciəsi ilə əlaqədar Cəmiyyət Estoniya Ali Sovetinin qarşısında böyük mitinq keçirmişdir. Mitinqdə nəinki Tallində yaşayan azərbaycanlılar, eyni zamanda estonlar və digər xalqların nümayəndələri də iştirak etmişlər. Ocaq Azərbaycan Mədəniyyəti Cəmiyyəti müstəqillik yoluna qədəm qoyan Azərbaycan və Estoniya respublikalarında demokratik proseslərin dərinləşməsi, xalqlarımızın arasında dostluğun və qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi sahəsində öz fəaliyyətini durmadan genişləndirir.

## İNGİLTƏRƏ

### “AZƏRBAYCAN DAYAQÇILARI CƏMİYYƏTİ” (London)

“Azərbaycan Dayaqçıları çəmiyyəti”nin əsas məqsədi Azərbaycanda baş verən hadisələr, demokratik proseslər, Ermənistanın Azərbaycana qarşı apardığı elan olunmamış müharibəsi haqqında həqiqəti dünya ictimaiyyətinə çatdırmaqdır. Mərkəzə Mustafa Rəsuli sədrlik edir. Azərbaycan Dayaqçılarının fəal iştirakı ilə "İndepedent" qəzeti Xocalı faciəsi, erməni təcavüzkarlarının torpağımızda törətdikləri vəhşiliklər haqqında bütöv bir səhifə həsr etmişdir. “Tayms” qəzeti bu haqda reportaj vermişdir. Mərkəzin yaxından köməyi ilə qəzet öz nömrələrinin birində respublikamızın həyatında mühüm hadisə olan prezident seçkilərinə həsr

etdiyi məqaləni "Azərbaycan öz prezidentini seçir" adlandırmışdır. Londonda çıxan qəzetlər Mərkəzin təşəbbüsü və yaxından iştirakı ilə dərc olunan bir sıra məqalələrində Azərbaycan torpağında baş verən hadisələrin obyektiv mənzərəsini yaradır. Mərkəz Azərbaycan Respublikasına qarşı yönəldilmiş informasiya blokadasının yarılması sahəsində öz səmərəli fəaliyyətini davam etdirir.

M.Rəsuli cəmiyyətin Azərbaycanla əlaqələrini möhkəmləndirmək məqsədilə respublikamızdakı müxtəlif mətbuat orqanları və ictimai təşkilatlarla sıx əlaqə yaradır, danışıqlar aparır. Bu baxımdan "AssA İradə"nin Londonda müxbir postu məhz "Azərbaycan Dayaqçıları cəmiyyəti"nin nəzdində açılmışdır.

## "AZƏRBAYCANA YARDIM FONDU"
## (London)

"Azərbaycana Yardım Fondu"nun təsisçisi Yəhya bəy Boler milliyətcə ingilisdir. Onun əsl adı Yan Bolerdir, müsəlmanlığı qəbul etmişdir. Onun həyat yoldaşı Xamuş xanım Qacari Ağari Məhəmməd Şah Qacarın nəslindəndir. Yəhya bəy uzun illər İranda yaşamışdır. O, həm də neft və qaz kəmərləri sahəsində ixtisaslaşmış "AYMEQ" beynəlxalq mühəndis kompaniyasına sədrlik edir. Son vaxtlar "Azərbaycana Yardım Fondu" ilə "AYMEQ" kompaniyası hesabına Şuşa və Fizulidən köçüb gələn qaçqınlara 250 min dollar həcmində 6 ton dərman verilmişdir. Fond Ümumdünya ekoloji təşkilatların köməyi ilə Azərbaycandakı ekoloji problemlərin ümumdünya miqyasına çıxarıb onların həllinə yönəltmək üzərində çalışır.

## "AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ"
## (Mançestr)

İngiltərənin Mançestr şəhərində fəaliyyət göstərən "Azərbaycan Mədəniyyət Mərkəzi" 1990-cı ildə yaradılmış və əsasən Cənubi Azərbaycandan olan gəncləri birləşdirir. Cəmiyyətin sədri Əbülfəz

Paşaoğlu 1990-cı ilin noyabrında Bakıda keçirilən Azərbaycan cəmiyyətlərinin qurultayında iştirak etmiş, respublikamız ilə yaxından tanış olmuşdur.

Bu təşkilatın əsas məqsədi Birləşmiş Krallıqda yaşayan azərbaycanlı icmasının yeni, müstəqil Azərbaycan dövlətinə kömək etməkdən ibarətdir. 1990-1991-ci illərdə Mançestrdə yaşayan soydaşlarımız Azərbaycan Respublikasına xeyli tibb avadanlığı və başqa kömək göndərmişlər.

1992-ci ilin iyununda isə Böyük Britaniya "Azərbaycan Mədəniyyət Mərkəzi" Azərbaycan Milli İstiqlal partiyasına bu təşkilatın istifadəsi üçün "Mersedes-300 D" markalı avtomobil hədiyyə etmişdir.

## "AZƏRBAYCANÇILAR KOMİTƏSİ"
## (London)

Londonda yaşayan soydaşlarımız 1988-ci ilin iyulunda "Azərbaycançılar Komitəsi" yaratmışlar. Komitənin əsasnaməsi və nizamnaməsi təsdiq edilmiş, onun idarə heyəti seçilmişdir. Komitənin "Aydınlıq" adlı qəzeti nəşr olunur. Qəzet iki dildə - türk və fars dillərində buraxılır. Qəzetin əsas məqsədi milli mədəniyyətimizi və tariximizi təbliğ etməkdir.

## İSLAM, ORTA ŞƏRQ VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ KAFEDRASI
## (Edinburq)

Şotlandiyanın Edinburq universitetində təşkil edilmiş İslam, Orta Şərq və Azərbaycan Mədəniyyəti Kafedrası islam dünyasının, o cümlədən Azərbaycanın mədəniyyətini öyrənmək və tədqiq etmək məsələləri ilə yaxından məşğul olur, Kafedranın professoru Qulamrza Səbri Təbrizi öz elmi-tədqiqat işində Azərbaycanın və Şərqin ədəbi tarixi şəxsiyyətləri

barədə onlarla məqalə dərc etmiş, dünyanın 30-dan artıq ölkəsində keçirilən elmi konfrans, forum və simpoziumlarda Azərbaycan mədəniyyətini təmsil etmişdir.

## İSVEÇ

### AZƏRBAYCAN-İSVEÇ YAZIÇILAR BİRLİYİ
### (Stokholm)

Azərbaycan İsveç yazıçılar Birliyinin əsas məqsədi Azərbaycanda gedən müasir siyasi prosesləri açıqlamaq, Azərbaycanla bağlı bütün məsələləri olduğu kimi, doğru düzgün işıqlandırmaq, əsil həqiqəti söyləməkdir. Erməni təcavüzü nəticəsində baş verən müharibənin səbəblərini Ermənistanın xülyalarını ifşa etmək üçün Birlik səmərəli fəaliyyət göstərir. Birliyin təşəbbüsü və yaxından iştirakı ilə Bakıda 1990-cı il 20 yanvar hadisələri zamanı Stokholmda etiraz mitinqi keçirilmişdir. Belə bir mitinq Xocalı soyqırımı zamanında da təşkil edilmişdir. Bu mitinqlərdə İsveçin ayrı şəhərində və bölgələrində və yaşayan minlərlə azərbaycanlı iştirak etmişdir.

Azərbaycan haqqında həqiqəti dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Birlik "Azərbaycan" adlı jurnal nəşr edir. Jurnalın nüsxələri ABŞ-a, o cümlədən Azərbaycana göndərilir. Birliyin üzvləri ara sıra Bakıya gəlməyə imkan Azərbaycanla baş verən demokratik prosseslərlə tanış olurlar gördüklərini obyektiv qələmə alaraq "Azərbaycan" jurnalı vasitəsilə dünyaya çatdırırlar.

### "AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ"
### (Geteborq)

İsveçin Geteborq şəhərindəki "Azərbaycan Mədəniyyət Mərkəzi" ölkədə yaşayan soydaşlarımıza Azərbaycanın mədəni, ictimai siyasi həyatı barədə kifayət qədər məlumat çatdırır. Mərkəzin sədri Fərəc Fərnudladır

Mərkəz vaxtaşırı Azərbaycandan İsveçdə qonaq olan mədəniyyət xadimlərimizin, incəsənət ustalarımızın həmvətənlərimizlə yanaşı isveçlilərlə də görüşlərini təşkil etməsi respublikamız barədə geniş, obyektiv informasiya çatdırılmasına yardım edir.

## “AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ” (Lund)

Lund şəhərində məskunlaşmış azərbaycanlıların vətənə olan bağlılığının möhkəmlənməsində Mərkəz səmərəli iş aparır, imkan tapdıqca Azərbaycanın incəsənət ustaları ilə görüş keçirir, mədəni əlaqələrin genişlənməsinə çalışır. Mərkəzin fəal üzvlərindən Məhin xanım mədəniyyətimizi, ədəbiyyatımızı, incəsənətimizi geniş təbliğ edir. Lund şəhərində onun naşiri və redaktoru olduğu ana dilində “Araz” jurnalı buraxılır.

## “AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ” (Malme)

İsveçin Malme şəhərində 1989-cu ildən fəaliyyət göstərən “Azərbaycan Mədəniyyət Mərkəzi” respublikamız da baş verən hadisələrlə təkcə həmvətənlərimizi məlumatlandırmaqla kifayətlənmir, isveçlilərdə və digər xalqların nümayəndələrində də Şimali və Cənubi Azərbaycan haqqında, onun tarixi və bu günü barədə təsəvvür yaratmaq üçün fəal iş aparır. Mərkəzə soydaşımız Şahnaz xanım sədrlik edir. Mərkəzin yaxından iştirakı ilə şəhərdə “Azərbaycanın səsi” radio verilişləri təşkil edilmişdir.

# İSPANİYA

## “AZƏRBAYCAN DOSTLARININ KÜLTÜR CƏMİYYƏTİ” (Madrid)

“Azərbaycan Dostlarının Kültür Cəmiyyəti” (Cəmiyyət eyni zamanda “İspan-Azəri Kültür Cəmiyyəti” adı ilə də tanınır) bir neçə ildir ki, Madriddə fəaliyyətə başlamışdır. Cəmiyyətin əsas məqsədi İspaniyada və Portuqaliyada yaşayan azərbaycanlıları sıx birləşdirməkdən ibarətdir. Cəmiyyət vətəndən uzaqlarda yaşayan azərbaycanlılara öz ana dilini qoruyub saxlamaq, onu təbliğ etmək, Şimali və Cənubi Azərbaycandan alınan qəzet və jurnallarla, kitablarla tanışlıq imkanı yaratmaq, xeyirdə-şərdə bir-birinin çağırışına yetişmək kimi xeyirxah işlərlə məşğuldur. “Güc birlikdədir” şüarı Cəmiyyətin fəaliyyətinin əsas qayəsidir. Bu sahədə Cəmiyyətin üzvləri, xüsusən onun sədri C. Erkin geniş və səmərəli iş aparır. “Dədə Qorqud” məcmuəsini nəşr edir. O, bir neçə dəfə Bakıda olmuş, Azərbaycan haqqında, xüsusən Qarabağ hadisələri barədə kitab buraxmaq üçün xeyli material toplamışdır.

## KANADA

### “AZƏRBAYCAN-KVEBEK CƏMİYYƏTİ”
### (Monereal)

Kanadada fəaliyyət göstərən “Azərbaycan-Kvebek Cəmiyyəti” Azərbaycandakı ictimai-siyasi hadisələrlə yaxından tanış olmaq, respublikanın həyatında baş verən demokratik dəyişiklikləri Kanadada yaşayan yurddaşlarımıza çatdırmaq, xariclə eyni surətdə yaradılan informasiya blokalasının yarılması məqsədilə təşkil olunmuşdur. Cəmiyyətin sədri Məsud Əliyevdir. Cəmiyyətin uzaq Kanadada yaşyan həmvətənlərimizin Azərbaycanla əlaqələrini möhkəmlətməklə onları respublikanın siyasi durumu ilə burada həyata keçirilən mühüm iqtisadi və ictmai siyasi dəyişikliklərlə tanış etmək sahəsində müntəzəm olaraq fəaliyyət göstərir. 1993-cü ilin mayında Cəmiyyətin sədri Məsud Əliyev Bakıda olarkən Kanadada yaşayan azərbaycanlıların problemləri onların Azərbaycanla əlaqələrin genişlənməsi barədə söhbətlər aparmış xüsusən bu əlaqələrin Azərbaycan Yurddaş Partiyasının yaxından iştirakı ilə təmzinlənməsi qərarlaşdırılmışdır.

## “AZƏRBAYCAN MƏRKƏZİ”
## (Toronto)

Kanadanın Ontario vilayətində yaşayan soydaşlarımız bu ilin oktyabr ayında yeni bir milli mədəniyyət mərkəzi açmışlar. Bütünlükdə Şimali Amerikada yaşayan azərbaycanlılar icmasının təşəbüssü ilə açılan bu təşkilat ilk növbədə uzaq qitədə milli mədəniyyətimizi təbliğ etmək Kanadada yaşayan soydaşlarımızın yaxın və mehriban ünsiyyətini yaratmaqdan ibarətdir.

Mərkəzin rəhbəri doktor Səid Kazemidir. Yeni yaradılan milli mədəniyyət mərkəzinə Azərbaycan Respublikası Xarici İşlər Naziri Həsən Həsənov xüsusi məktub göndərərək Torontoda yaşayan həmvətənlərimizi təbrik etmişdir. Bu təbrikdə H.Həsənov qeyd etmişdir ki, “bu mərkəzin açılışı dünyada yaşayan bütün azərbaycanlıların arasında əlaqələrin inkişafına və möhkəmlənməsinə xidmət edəcək, belə mərkəzlərin yaradılması Şimali Amerikada yaşayan həmvətənlərimizin birləşməsində Azərbaycan Respublikası ilə Kanadanın münasibətlərində böyük rol oynayacaqdır”. Nazir bunu xüsusi olaraq bildirmişdir ki, Azərbaycan Respublikasının bu ağır günündə, yaşadığı yerdən asılı olmayaraq, hər bir azərbaycanlı öz tarixi Vətəni üçün var qüvvəsini əsirgəməyəcəkdir.

“Azərbaycan Mərkəzi” yaxın vaxtlarda respublikamızdakı müxtəlif ictimai təşkilat və birliklərlə əlaqə yaratmağı, hazırkı vəziyyətlə bağlı humanitar yardım etməyi planlaşdırmışdır.

## GÜRCÜSTAN

## “BİRLİK” ÜMUMGÜRCÜSTAN AZƏRİ TÜRKLƏRİNİN CƏMİYYƏTİ
## (Tbilisi)

“Birlik” Cəmiyyətinin yaranması 1992-ci ilin iyun ayında keçirilmiş təsis yığınçağında qərara alınmışdır. Yığıncaqda “Gürcüstan” qəzetinin redaktoru, Gürcüstan Respublikasının əmakdar jurnalisti Süleyman Süleymanov başda olmaqla təşkilat komitəsi yaradıldı. Komitənin ardıcıl və səmərəli işi nəticəsində 1992-ci ilin oktyabrında Tbilisi şəhərində

"Birlik" Ümumgürcüstan Azəri Türklərinin Cəmiyyətinin təsis qurultayı keçirildi. Qurultayda Gürcüstanın azərbaycanlılar yaşayan Marneuli, Bolinisi, Qardabani, Laqodi, Kaspi və digər bölgələrindən nümayəndələr iştirak edirdilər. Qurultayda 21 nəfərdən ibarət Baş Şura və Ağsaqqallar Şurası seçildi. Süleyman Süleymanov Cəmiyyətin prezidenti seçildi.

"Birlik" Cəmiyyətinin əsas məqsədi Gürcüstanın azərbaycanlı əhalisinin mədəniyyət, təhsil, dil, kütləvi informasiya, professional yaradıcılıq və xalq yaradıcılığı, din və digər sahələrdə mənəvi tələbatlarının ödənilməsi üçün əlverişli şərait yaratmaqdır. Gürcüstanın azərbaycanlı əhalisinin deportasiya olunması, soydaşlarımızın hüquqlarının pozulması hallarının, azərbaycanlılar yaşayan bölgələrdə kadrların milli mənsubiyyətə görə təqib olunması, toponomik adların əsassız olaraq gücləndirilməsinin qarşısının alınması sahəsində Cəmiyyət geniş fəaliyyət göstərmək niyyətindədir. Cəmiyyət birgə qüvvə ilə Azərbaycan və Gürcüstan arasında bütün mədəni, ədəbi, iqtisadi əlaqələri bərpa və inkişaf etdirmək üçün səy göstərir.

## "QEYRƏT" XALQ HƏRƏKATI
## (Marneuli)

Gürcüstan azərbaycanlılarının "Qeyrət" Xalq Hərəkatının yaranması 1990-cı il dekabrın 8-də Marneulidə keçirilən respublika təsis konfransında elan olunmuşdur. Konfransda Marneuli, Bolnisi, Dmanisi, Qardabani, Saqareço, Kaspi bölgələrindən, Tbilisidən nümayəndələr, habelə Azərbaycandan qonaqlar iştirak etmişlər. "Qeyrət"in proqramı, nizamnaməsi qəbul olunmuş, onun strukturu təsdiq edilmiş, redaksiya heyətinin, müvafiq komissiyaların, Ağsaqqallar Şürasının üzvləri seçilmişlər.

35 yaşlı dindar, ali pedaqoji təhsilli Əlibala Əsgərov "Qeyrət"in idarə heyətinin sədri seçilmişdir. Konfrans iştirakçıları Gürcüstan Ali Sovetinə və Milli Konqresə, respublikada yaşayan bütün azərbaycanlılara, Azərbaycan ictimaiyyətinə müraciətlər qəbul etmişlər. 1990-cı ildən fəaliyyətə başlayan "Qeyrət" Xalq Hərəkatı yalnız 1993-cü il yanvarın 15-də Gürcüstan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyatdan keçmişdir.

“Qeyrət” Xalq Hərəkatı Gürcüstanda yaşayan yurddaşlarımızın Gürcüstan Respublikasının mövcud konstitusiyası çərçivəsində adi insani və vətəndaşlıq hüquqlarının müdafiəsi uğrunda fəaliyyət göstərir. “Qeyrət” Gürcüstanda yaşayan yarım milyonluq azərbaycanlı əhalinin iqtisadi, siyasi, mədəni inkişafının bütün problemlərinin həlli sahəsində müntəzəm iş aparır, Gürcüstandakı həmvətənlərimizin hüquqlarının tapdalanmasına qarşı qətiyyətlə çıxış edir. 1992-ci ilin oktyabrında “Yurddaş” Cəmiyyəti və “Qeyrət” Xalq hərəkatının birgə qəbul etdiyi bəyanatda Gürcüstan Respublikasında yaranmış sosial-iqtisadi vəziyyətin hazırkı durumunda Azərbaycan hökumət orqanlarından, ictimai-siyasi cəmiyyətlərdən, ayrı-ayrı siyasi qurumlardan və eləcə də kütləvi informasiya vasitələrindən öz fəaliyyətlərində son dərəcə dəqiq, obyektiv olmaları tələb olunurdu. “Qeyrət” Xalq hərəkatı 1993-cü ilin yanvarında Bakıda keçirilən “Borçalı: dünən, bu gün, sabah” forumunda iştirak etmişdir. Forumun əsas məqsədi Borçalıda soydaşlarımızın vəziyyətini müzakirə etmək, onunla bağlı Gürcüstan və Azərbaycan respublikalarının rəsmi mövqelərini müəyyənləşdirmək, iki respublika arasındakı münasibətlərin nizama salınmasına kömək etməkdir.

## “DAYAQ” ASSOSİASİYASI
## (Tbilisi)

Gürcüstanda yaşayan soydaşlarımızı öz ətrafında birləşdirən “Dayaq” Assosiasiyası 1991-ci ilin oktyabrında fəaliyyətə başlamışdır. Assosiasiya “Ümumgürcüstan Rustaveli Cəmiyyəti”nin nəzdində yaradılmışdır. Assosiasiyanın fəallarının əsas məqsədi Gürcüstanda yaşayan yurddaşlarımızın ictimai və mənəvi inkişafına, mədəni ənənələrinin qorunub saxlanılmasına, onların konstitusiya hüquqlarının qorunmasına kömək etməkdir. Assosiasiya Zaqafqaziyanın bütün qabaqcıl ictimai-siyasi qüvvələri ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirir. Gürcüstanda Azərbaycan xalqının tarixini, ədəbiyyatını və mədəniyyətini təbliğ etməyə, hər iki respublikanın içtimai təşkilatlarının liderlərinin, elm və mədəniyyət xadimlərinin görüşlərinin təşkilinə çalışır. Assosiasiyanın əsas fəaliyyət istiqamətlərindən biri də nəşriyyat işini təşkil etmək, tarixi abidələrin bərpası ilə əlaqədar tədbirlər işləyib həyata keçirməkdir.

# LATVİYA

## “AZƏRİ” CƏMİYYƏTİ
## (Riqa)

“Azəri” Cəmiyyəti Latviya Milli Mədəniyyət Cəmiyyətləri Birliyində təmsil olunmuşdur. Cəmiyyətin sədri hüquqşünas Əlipaşa Nəsirlidir. Cəmiyyət Latviyada daimi yaşayan 3700-dən çox azərbaycanlılar arasında fəaliyyət göstərir. Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, ermənilərin hərbi təcavüzünə qarşı gedən qanlı müharibə haqqında həqiqətlərin Latviyada yayılmasında Cəmiyyət təqdirəlayiq iş aparır Cəmiyyətin üzvləri Riqa şəhərində keçirilən ictimai-siyasi tədbirlərdə, görüşlərdə fəal iştirak edir, televiziya ekranında, mətbuat səhifələrində Azərbaycandakı demokratik proseslərin izah olunması, erməni işğalçılarının sərsəm xülyalarının ifşa edilməsi ilə əlaqədar müntəzəm olaraq çıxışlar təşkil edirlər.

Cəmiyyətin yaxından iştirakı ilə bir sıra mədəni tədbirlər hazırlanıb keçirilir. Cəmiyyətin təşəbbüsü ilə yaradılan bazar günü məktəbi 1992-ci ilin fevralından fəaliyyət göstərir. Müdafiə arasında təkcə azərbaycanlılar deyil, latışlar, ruslar da vardır. Hər bazar günü onlarca şagird latın qrafikalı türk dilini öyrənmək üçün toplaşırlar. Beş saat türk dili və ədəbiyyatı tədris edilir. Bundan başqa bir saat estetik tərbiyəyə, bir saat da İslam dininin mahiyyətinin öyrənilməsinə sərf olunur. Hər ay Latviya radiosunda ayrılan 35-40 dəqiqəlik vaxt ərzində musiqimiz, dilimiz, tariximiz təbliğ olunur.

## “LATVİYA-AZƏRBAYCAN MƏDƏNİYYƏT ASSOSİASİYASI”
## (Riqa)

“Latviya-Azərbaycan mədəniyyət assosiasiyası” 1992-ci il mayın 28-də Riqada yaradılmışdır. Onun prezidenti Faiq Səfərovdur. Assosiasiyanın ətrafında əsasən ziyalılar toplaşmışlar. Assosiasiya nəinki Azərbaycanda, eyni zamanda keçmiş Sovet İttifaqının, Amerikanın, İsveçin, Avstraliyanın

və digər ölkələrin azərbaycanlı icmaları ilə əlaqələr yaratmışdır. Onun üzvləri içərisində müxtəlif millətlərin nümayəndələri də təmsil olunmuşdur. Assosiasiya ilə məşhur latış şairi - türkoloqu Uldis Berzinş əməkdaşlıq edir. O, “Dədə Qorqud”u latış dilində tərcümə etmişdir. Assosiasiya öz qüvvəsilə əsəri çap etdirmək fikrindədir. Latviya televiziyası və radiosu, bir çox latış yazıçıları, incəsənət ustaları Assosiasiya ilə yaxından əməkdaşlıq edirlər. Assosiasiyanın fəaliyyətində Azərbaycanda gedən demokratik proseslər, ictimai-siyasi hadisələr, erməni təcavüzkarlarının Azərbaycan torpağında törətdikləri vəhşiliklər barədə həqiqətin yayılması əsas yer tutur. Assosiasiyanın yaxından iştirakı ilə Latviya Xalq Cəbhəsinin “Baltiyskoye vremya” qəzeti 1992-ci ilin noyabrında bütövlükdə xüsusi buraxılışını Azərbaycana həsr etmişdir.

“Latviya-Azərbaycan mədəniyyət assosiasiyası” Qarabağ hadisələrinin əsl mahiyyətini açmaqla Latviya kütləvi informasiya vasitələrində fəal təbliğat işləri aparır. Onun təşəbbüsü ilə indiyə qədər yeddi latış jurnalisti Qarabağın müharibə gedən bölgələrində olmuş, bu barədə Latviya mətbuatında, radio və televiziyasında xeyli qiymətli materiallar verilmişdir.

Assosiasiyanın köməyi ilə Latviyanın bir neçə jurnalistinin Azərbaycan Respublikasının vasitəsilə Bosniyaya göndərilməsi planlaşdırılmışdır.

## “TƏBRİZ” CƏMİYYƏTİ

## (Riqa)

Latviyanın paytaxtında soydaşlarımızın yaratdıqları üçüncü milli mədəniyyət mərkəzidir. Ötən il mərkəzin idarə heyəti təşkil olunmuşdur. Cəmiyyətin rəhbəri Həsənzadədir.

Hazırda Azərbaycan torpaqlarına erməni təcavüzü ilə bağlı həqiqətlərin Latviyada, eləcə də digər Baltik respublikalarında yayılması sahəsində xeyli iş görmüş cəmiyyət üzvləri öz həmvətənlərinə - cəbhə xətlərində döyüşən əsgərlərimizə bir neçə dəfə ərzaq və dərman ləvazimatı yardımı göstərmişlər.

“Təbriz” cəmiyyəti respublikamızdakı “Qarabağa Xalq Yardımı komitəsi” ilə yaxından əməkdaşlıq edir.

"Təbriz" cəmiyyəti Riqada, eləcə də Latviyanın digər şəhərlərində bir sıra maraqlı mədəniyyət və xeyriyyə tədbirləri keçirmişdir.

## LİTVA
## "ODLAR YURDU" CƏMİYYƏTİ
## (Vilnüs)

"Odlar Yurdu" Cəmiyyəti keçmiş sovet respublikalarının ərazisində azərbaycanlıların yaratdıqları ilk cəmiyyətlərdən biridir. Litva ilə Azərbaycan arasında ədəbi-mədəni əlaqələrin tarixi qədimdir. Litvalıların Azərbaycan ərazisində görünməsi əsrimizin ikinci yarısına təsadüf edir. Çarizmin milli zülmündən, iqtisadi çətinliklər ucbatından bir çox litvalı Bakıya pənah gətirmişlər. Əsrin əvvəllərində Bakıda təqribən səkkiz min litvalı yaşayırdı. Onların burada müxtəlif ictimai-mədəni cəmiyyətləri fəaliyyət göstərirdi. 1918-ci ildə Azərbaycan və Litva öz müstəqilliyini elan etdilər.1919-cu ildə isə iki dövlət arasında konsulluq səviyyəsində diplomatik əlaqələr yaradılmışdı. Xalqlarımızın arasında əlaqələrin yeni mərhələsi Litvada "Sayudis" hərəkatının və respublikamızda Azərbaycan Xalq Cəbhəsinin meydana atılmasından başlanır. Elə bu zamanlar fəaliyyətə başlayan "Odlar Yurdu" Cəmiyyəti Azərbaycan və Litva arasında əlaqələrin möhkəmlənməsinə, hər iki respublikada baş verən demokratik hərəkatın bütün çətinlikləri şəraitində öz işini qurmağa çalışırdı. Qarabağ böhranının başlanması, Azərbaycana qarşı erməni təcavüzünün müxtəlif informasiya vasitələri tərəfindən saxtalaşdırılması Litvada Cəmiyyətin fəaliyyətini xeyli dərəcədə çətinləşdirirdi. Cəmiyyətin üzvləri bu zaman olduqca səmərəli iş aparırdılar. Onlar Azərbaycanda baş verən hadisələr barədə informasiya blokadasını yarmağa, bütün vasitələrdən istifadə edərək Litva ictimaiyyətinə həqiqət çatdırmağa çalışırdılar. Bakıda Qanlı yanvar hadisələri ilə əlaqədar 1990-cı il fevralın 1-də Litva, Estoniya və Latviya azərbaycanlıları Vilnüs şəhərinin mərkəzində Gediminas kostyolunda toplaşaraq matəm ayinlərin icra etdilər.

Azərbaycan və Litva respublikalarının müstəqillik əldə etməsi, onlar arasında iqtisadi, siyasi və mədəni əlaqələrin yeni məcraya düşməsi "Odlar Yurdu" Cəmiyyətinin fəaliyyətini xeyli canlandırdı. Cəmiyyətin sədri

Mahir Həmzəyev eyni zamanda "Sayudis" hərəkatı seyminin və Litva hökumətinin yanında Millətlər Departamentinin üzvüdür. 1992-ci ilin oktyabrında o, Azərbaycan Respublikasının Litvada səlahiyyətli nümayəndəsi təyin olunmuşdur. Azərbaycanda demokratik qüvvələr hakimiyyətə gələndən sonra iki ölkə arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycanda Litva arasında diplomatik əlaqələr yaradılması sahəsində ardıcıl addımlar atılır, iqtisadi və siyasi əlaqələr xeyli möhkəmlənir. Bu sahədə "Odlar Yurdu" Cəmiyyəti öz xeyirxah fəaliyyətini davam etdirir.

## MOLDOVA

### "AZƏRBAYCAN MİLLİ ADƏT VƏ ƏNƏNƏLƏRİ MƏRKƏZİ"
### (Kişinyev)

Kişinyev şəhərində fəaliyyət göstərən "Azərbaycan Milli adət və ənənələri Mərkəzi" Moldovada yaşayan soydaşlarımız arasında milli mədəniyyətimizin, adət-ənənələrimizin qorunub saxlanılması və təbliğ olunması sahəsində səmərəli iş aparır. Azərbaycanda baş verən hadisələr, xüsusən erməni təcavüzünə məruz qalan xalqımızın mübarizəsi haqqında doğru-düzgün, obyektiv məlumatı yaymaqda, Azərbaycan və Moldova respublikaları arasında iqtisadi, siyasi və mədəni əlaqələrin möhkəmlənməsində Mərkəzin üzvləri bütün imkanlardan və vasitələrdən istifadə etməyə çalışırlar.

Mərkəz həm də özünün "Araz" adlı qəzetini nəşr etdirir.

## NORVEÇ

### "AZƏRBAYCAN" ASSOSİASİYASI
### (Oslo)

Norveçin Oslo şəhərindəki "Azərbaycan" Assosiasiyası Bakıda 1990-cı il yanvar hadisələrindən sonra yaranmışdır. Belə bir Cəmiyyətin

yaranmasını soydaşlarımız həmin günlər SSRİ səfirliyinin qarşısında keçirdikləri etiraz mitinqləri zamanı qərarlaşmışlar. Assosiasiyanın ilk vaxtlar 120 nəfərə kimi üzvi var idi. Onlar Azərbaycanın ictimai-siyasi həyatı ilə tanış olmaq və vətəndən uzaqda yaşayan soydaşlarımıza respublikamızda baş verən hadisələr, erməni təcavüzkarlarının məkrli xülyaları barədə həqiqəti çatdırmaq sahəsində öz fəaliyyətlərini genişləndirməyə çalışırlar. Bu məqsədlə Assosiasiya Azərbaycanla əlaqələrin möhkəmlənməsi sahəsində bir sıra əməli tədbirlər hazırlayıb həyata keçirmək fikrindədir.

## “AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ”
## (Oslo)

Norveçdə yaşayan həmvətənlərimizin təşkil etdikləri “Azərbaycan Mədəniyyət Mərkəzi” 1989-cu ildə yaranmışdır. Mərkəzə Kamil Şüai sədrlik edir. Mərkəz ədəbiyyatımızı və incəsənətimizi Avropada tanıtmağı və yaymağı özünün əsas vəzifələrindən biri hesab edir. Mərkəz mədəni-kütləvi tədbirlər, geçələr, sərgilər təşkil edir. Mərkəzin dəvəti ilə 1990-cı ilin martında Norveçdə Azərbaycan mədəniyyəti həftəsi müvəffəqiyyətlə keçmişdir. Mərkəzin üzvləri Azərbaycanla əlaqələrin yaranmasına və möhkəmlənməsinə çalışır, milli mədəniyyətimizin təbliğinə böyük əhəmiyyət verirlər.

# ÖZBƏKİSTAN

## “AZƏRBAYCAN-ÖZBƏKİSTAN MƏDƏNİ-İQTİSADİ ƏLAQƏLƏR MƏRKƏZİ”
## (Səmərqənd)

“Azərbaycan - Özbəkistan Mədəni-İqtisadi Əlaqələr Mərkəzi” 1992-ci ilin aprelində Səmərqənddə yaradılmışdır. Sədri Səxavət Ovçeyivdir. Səmərqənd vilayətində 6500 nəfərə kimi azərbaycanlı yaşayır.

Onlar müxtəlif vəzifə və peşə sahibləridir. Mərkəzin əsas vəzifəsi Azərbaycan-Özbəkistan mədəni və iqtisadi əlaqələrinin inkişafına köməklik göstərmək, Özbəkistanda yaşayan həmvətənlərimizə xalqımızın

adət-ənənələrini yaşatmaqda yardım etməkdir. Dili, dini və adət-ənənənələri eyni olan özbək xalqı ilə azərbaycanlıların əlaqələrinin möhkəmlənməsi Mərkəzin qarşısında duran əsas vəzifələrdən biridir. Mərkəz "Səmərqənd" qəzetinin bir səhifəsini Azərbaycan türkcəsində buraxmağa təşəbbüs göstərmişdir. Eyni zamanda Mərkəz türk, ərəb və fars dillərini öyrədən kurslar və Azərbaycan milli xörəkləri mərkəzi açmaq niyyətindədir.

## "QARDAŞLIQ" AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ
## (Daşkənd)

"Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzi 1989-cu ilin sentyabrında Daşkənddə yaradılmışdır. Mərkəzin sədri Allahverdi Fərhadovdur. Özbəkistanda 60 mindən çox azərbaycanlı yaşayır. Onların hər altı nəfərindən biri Daşkənddə məskunlaşmışdır. Mərkəzin əsas məqsədi Özbəkistanda yaşayan soydaşlarımız arasında sıx əlaqələr yaratmaq, onları Azərbaycanda baş verən hadisələrlə yaxından tanış etmək, milli mədəni dəyərlərin qorunub saxlanılmasına çalışmaq, Azərbaycan və Özbəkistan xalqları arasında dostluq əlaqələrini möhkəmləndirməkdir.

Mərkəzin fəaliyyətində Azərbaycana qarşı erməni təcavüzkarlarının apardıqları işğalçılıq müharibəsi haqqında əsil həqiqəti açıb göstərmək, soydaşlarımıza və Özbəkistanda yaşayan xalqlara bu hadisələrin mahiyyətini izah etmək mühüm yer tutur. Mərkəzdə keçirilən tədbirlərdə və toplanışlarda Azərbaycanda gedən hadisələr təhlil olunur, erməni təcavüzkarlarına qarşı müharibə aparmağa məcbur olan Azərbaycana maddi və mənəvi kömək göstərilməsi təşkil edilir. Mərkəzdə tez-tez xalqımızın tarixindən, adət-ənənələrindən söhbətlər keçirilir. Mərkəz Özbəkistanın, Azərbaycanın və digər respublikaların mədəniyyət və elm dairələri ilə əlaqələr yaratmışdır. Mərkəzdə teatr, musiqi, folklor-etnoqrafiya kollektivləri, bədii studiyalar və dərnəklər təşkil edilmişdir.

Mərkəzin təşkil etdiyi tədbirlərdə digər millətlərin nümayəndələri də iştirak edirlər. Birgə mədəni və siyasi tədbirlər keçirilir, dəyirmi stol arxasında söhbətlər təşkil edilir, ümumi problemlərdən və qayğılardan da nışılır. Belə tədbirlərdə Azərbaycan mədəniyyətini, xalq sənətini təbliğ

etmək məsələlərinə xüsusi diqqət yetirilir. Mərkəz Azərbaycanın peşəkar incəsənət ustaları və özfəaliyyət kollektivləri ilə müntəzəm əlaqələr saxlayır. “Muğam” teatrının, Salyan rayonu özfəaliyyət kollektivlərinin, Dəvəçi rayon mədəniyyət evinin “Gülüstani-İrəm” xalq çalğı alətləri ansamblının Daşkənddə qastrol səfərləri uğurlu keçmişdir. Mərkəzin yaxından iştirakı ilə Azərbaycan Elmlər Akademiyası Əsaslı kitabxanasının təşkil etdikləri sərgilərə, Azərbaycan filmləri festivalına minlərlə daşkəndli baxmışdır. Mərkəz Nəvainin və Nizaminin yubiley təntənələrini böyük müvəffəqiyyətlə keçirmişdir.

## RUSİYA FEDERASİYASI

### “OCAQ” AZƏRBAYCAN MƏDƏNİYYƏT CƏMİYYƏTİ (Moskva)

“Ocaq” Azərbaycan Mədəniyyət Cəmiyyəti Moskvada yaşayan azərbaycanlıların yaratdıqları ilk təşkilatlardandır. Cəmiyyət 1989-cu ilin oktyabrında Moskva Soveti tərəfindən rəsmi qeydiyyatdan keçmiş, həmin ilin dekabrından fəaliyyətə başlamışdır. Sədri Sahib Seyidovdur. Bakıda 1990-cı il faciəli yanvar hadisələri günlərində yenicə fəaliyyətə başlamış Cəmiyyət informasiya qıtlığına baxmayaraq, geniş təbliğat işi apararaq Moskva ictimaiyyəti arasında əsil həqiqəti yaymağa çalışmışdır. 1990-cı ilin aprel ayının. 13-də “Ocaq” Cəmiyyəti özünün “Ziya” adlı müstəqil qəzetinin ilk nömrəsini buraxmışdır. Qəzet ziyalıların köməyi ilə Gəncədə nəşr edilmişdi. Qəzet Cəmiyyətin fəaliyyəti ilə bağlı yazılar verməyi, Azərbaycanın mədəniyyəti, tarixi haqqında məqalələr dərc etməyi nəzərdə tuturdu. Cəmiyyət öz fəaliyyətini Azərbaycandakı demokratik dəyişikliklərlə, Moskvada yaşayan soydaşlarımızla respublikanın iqtisadi, siyasi və mədəni həyatı ilə əlaqələndirməyə çalışır.

### “AZƏRBAYCAN VƏTƏNDAŞLIQ ASSAMBLEYASI” (Moskva)

“Azərbaycan Vətəndaşlıq Assambleyası” Respublikamızın hüdudlarından kənarda yaşayan azərbaycanlıların səylərini birləşdirməyi, onların Azərbaycanla əlaqəsini möhkəmləndirməyi, keçmiş SSRİ respublikalarının şəhərlərindəki Azərbaycan Mədəniyyət Mərkəzlərinin və cəmiyyətlərinin fəaliyyətini əlaqələndirməyi qarşısına məqsəd qoymuşdur. Assambleyanın 1991-ci ilin mayında Moskvada keçirilmiş təsis konfransında Azərbaycan cəmiyyətlərinin 50-dən çox nümayəndəsi iştirak etmişdir. Konfransın iştirakçıları Assambleyanın Nizamnaməsini və Məramnaməsini qəbul etmişlər. “Azərbaycan Vətəndaşlıq Assambleyası”

nın prezidenti Zahid Qocayevdir.

Assambleya öz fəaliyyətində Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına, xalqların bərabərliyinə, şəxsiyyətin hüquq və azadlığına çalışır. Bu təşkilat Azərbaycandan kənarda yaşayan həmvətənlərimizin hüquq və sosial müdafiəsinin qorunub saxlanması, xeyriyyəçilik fəaliyyətinə də diqqət yetirir.

Assambleyanın 1992-ci ilin noyabr ayında keçirilən ikinci konfransı xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin intensivləşdirilməsi sahəsində konkret iş planı müəyyənləşdirilmişdir.

AVA Moskva şəhərində tez-tez bir sıra mədəni-kütləvi və xeyriyyə tədbirləri də keçirir.

## “RUSİYA-AZƏRBAYCAN DOSTLUĞU CƏMİYYƏTİ”
## (Moskva)

1993-cü ilin aprelində Moskvada Xalqlar Dostluğu evində Rusiya-Azərbaycan Dostluğu Cəmiyyətinin təsis konfransı keçirilmişdir. Konfransın iştirakçıları Cəmiyyətin mərkəzi idarə heyətini, rəyasət heyətini, təftiş komissiyasını seçmiş, onun nizamnaməsini qəbul etmişdir. Nikolay Baybakov Cəmiyyətin sədri seçilmişdir. Yeni təşkil olunan müstəqil bölgələrarası qeyri-hökumət birliyi iki ölkə arasında əməkdaşlığın sahmanlanmasına və inkişafına kömək göstərməyi, ənənəvi əlaqələri dirçəltməyi və möhkəmlətməyi özünün əsas vəzifəsi hesab edir.

## “BAKILI” CƏMİYYƏTİ
## (Moskva)

1992-ci ilin avqustunda Moskvada Azərbaycanın daimi nümayəndəliyinin köməyi ilə rəsmi qeydiyyatdan keçən “Bakılı” Cəmiyyəti “Bakılı Beynəlxalq Mədəniyyət Cəmiyyəti”nin Moskva şöbəsidir. Sədri Fuad Quliyevdir Cəmiyyət Moskvada yaşayan keçmiş bakılıları öz ətrafın da birləşdirmək, onların əlaqələrini möhkəmləndirmək, müxtəlif ictimai-siyasi və mədəni tədbirlər təşkil etmək sahəsində fəaliyyət göstərir.

Cəmiyyət öz gələcək planlarında rəngarəng mədəni maarif işi, yazıçıların, bəstəkarların yaradıcılığı ilə tanışlıq, sərgilər, konsertlər, xeyriyyə tədbirləri keçirmək nəzərdə tutur. Cəmiyyətin əsas vəzifələrindən biri də milliyətindən asılı olmayaraq Moskvada yaşayan Bakılıların Azərbaycanla əlaqələrinin möhkəmlənməsinə çalışmaqdır.

## “AZƏRBAYCAN” CƏMİYYƏTİ
## (Novosibirsk)

“Azərbaycan” Cəmiyyəti 1992-ci ilin ortalarında Novosibirsk şəhərində fəaliyyətə başlamışdır. Cəmiyyətin məqsədi Rusiyanın və başqa dövlətlərin xalqları ilə mədəni, mənəvi və iqtisadi əlaqələri inkişaf etdirmək, Novosibirskidəki azərbaycanlılar arasında adət və ənənələrimizin saxlanılmasına kömək göstərməklə yanaşı, onlara sosial, hüquqi, mənəvi və başqa kömək və yardım etməkdir. Cəmiyyət qısa bir müddət ərzində Azəbaycan Respublikası ilə əlaqələr yarada bilmişdir. Cəmiyyətin təşəbbüsü ilə Novosibirsk televiziyasının “Aksent” Yaradıcılıq Birliyinin jurnalistləri Qarabağ da olmuş, Azərbaycan prezidenti və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə görüşmüşlər. Onların çəkdikləri sənədli film Novosibrskdə göstərilmiş və şəhərin sakinlərinə respublikamızın Ermənistan tərəfindən cəlb edildiyi müharibə, onun qəhrəmanları haqqında həqiqəti çatdırmışdır. Cəmiyyət Novosibirskdə “Şəhriyar” Azərbaycan ansamblının qastrolunun təşkilində də iştirak etmişdir.

## “DAYAQ” AZƏRBAYCAN MƏDƏNİYYƏTİ CƏMİYYƏTİ (Sankt-Peterburq)

Azərbaycan Mədəniyyət Cəmiyyəti Bakıda 1990-çı il faciəli yanvar hadisələrinin təsiri altında yaranmışdır. İlk vaxtlar Cəmiyyət əsasən fəaliyyətə Azərbaycanda baş verən hadisələr haqqında düzgün informasiya yaymaq, mətbuat konfransları keçirməklə başlamışdır. Sankt-Peterburq şəhərində 120 mindən çox azərbaycanlı yaşayır. Onların beş min nəfərdən çoxu Cəmiyyətin üzvüdür. Cəmiyyətin beş şöbəsi vardır daxili və xarici əlaqələr, mədəniyyət və təhsil, informasiya-mətbuat xidməti, kommersiya və biznes, xəzinə şöbəsi. Hazırda Cəmiyyətin sədri Paşa Rəcəbovdur.

Cəmiyyətin üzvləri vaxtaşırı Azərbaycanda olur, Qarabağda və sərhədlərimizdə ermənilərin xalqımıza qarşı apardığı müharibənin özünü dəhşətlərini olduğu kimi vətəndən uzaqda açıqlanmasına çalışırlar. Bundan əlavə Azərbaycana davadərmanla, tibb ləvazimatı ilə kömək edilməsində, yaralıların müalicəsi ilə məşqul olması üçün Sankt-Peterburqdan yüksək ixtisaslı həkimlərin gətirilməsində Cəmiyyətin üzvləri yaxından iştirak edirlər.

Cəmiyyətin təşəbbüsü ilə adət-ənənələrimizin qorunub saxlanılması, ana dilinin yaşadılması üçün müntəzəm fəaliyyət göstərilir. Bu məqsədlə Bazar günü məktəbi açılmışdır. Məktəbdə türk dili, tarix və musiqi fənləri tədris olunur. Məktəbin bütün maliyyə xərclərini şəhərdəki “Azəri” kiçik müəssisəsinin direktoru Ağaismayıl bəy öz üzərinə götürüb.

Azərbaycan Mədəniyyəti Cəmiyyətinin fəal üzvlərindən biri Fərqanə Əzizova Neva sahillərində görülən işlər barədə demişdir:

- Əsas işimiz Azərbaycanda baş verən hadisələri olduğu kimi yaymaqdır. Bunu isə yığıncaq və konfranslar vasitəsilə həyata keçiririk. Hər il yanvarın 20-də şəhidlərimizin illiyini Tatar məscidində və Kilsədə bir qayda olaraq qeyd edirik. Belə mərasimlərə ermənilər də yığışıb gəlirlər ki, biz Azərbaycan qaçqınlarıyıq...

Cəmiyyətin üzvü Xeyransa Mirzəyeva 1990-cı il yanvar hadisələri zamanı “İnam” adlı qəzet nəşr etdirmişdir. Digər soydaşımız Şəmsiyyə Abdullayeva isə Sankt-Peterburqdakı İncəsənət Akademiyasında oxuyur və “Smena” qəzetinin əməkdaşıdır. Ötən illər ərzində Ş.Abdullayeva həmin

qəzet Qarabağ hadisələri, Azərbaycan tarixi ilə bağlı bir sıra maraqlı məqalə və yazıçılar çap etdirmişdir.

## "AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ"
## (Sankt-Peterburq)

Sankt-Peterburqda yaşayan azərbaycanlıları bir təşkilat ətrafında birləşdirmək ideyası əsasən Bakıda 1990-cı il qanlı yanvar hadisələrindən sonra irəli sürülmüş və yaradılmışdır. Həmin günlər həmvətənlərimizin bir qrupu Bakı hadisələrinə həsr olunmuş fotosərgi təşkil etmiş, "Svetlana" elektron birliyində fəhlələrin iştirakı ilə geniş mitinq keçirmişdir. 1990-cı il fevralın 7-də Bakı faciəsinə həsr olunmuş "Svetlana" adlı xüsusi qəzet nömrəsi buraxıldı. Qəzetin nüsxələri tez bir vaxta şəhərin sakinləri arasında geniş yayıldı. Yarandığı ilk gündən Mədəniyyət Cəmiyyətinin sədri Məcnun Şükürovdur.

Cəmiyyətin üzvləri şəhərin sakinləri arasında müntəzəm olaraq təbliğat işi aparırlar. Onlar öz çıxışlarında və görüşlər zamanı Azərbaycana qarşı Ermənistanın elan olunmamış müharibəsi haqqında həqiqəti yayır, erməni millətçilərinin böhtan dolu çıxışlarının ifşa olunmasında fəal iştirak edirlər. Cəmiyyət bir sıra mədəni tədbirlərin keçirilməsinə, milli mədəniyyətimizin təbliğinə xüsusi diqqət yetirir. Nizaminin 850 illiyinə həsr olunmuş Sankt-Peterburq – Gəncə fövqəl marafon veloyürüşünü "Poklonnaya qora" idman cəmiyyəti ilə "Azərbaycan Mədəniyyət Cəmiyyəti" təşkil etmiş və müvəffəqiyyətlə keçirmişdir.

## "SANKT - PETERBURQ - AZƏRBAYCAN İQTİSADİ, ELMİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ CƏMİYYƏTİ"
## (Sankt-Peterburq)

Sankt-Peterburq vilayətində yaşayan azərbaycanlılar, eləcə də Azərbaycan Respublikasına dərin rəğbət bəsləyən digər millətlərdən olan nevalılar bu qədim rus şəhərində yeni bir cəmiyyət yaratmağı qərara almışlar.

1993-cü ilin iyun ayında Sankt-Peterburqun Fontanka ərazisində yerləşən Dostluq Evində Cəmiyyətin təsis konfransı keçirilmişdir. Konfrans iştirakçıları cəmiyyətin İdarə heyətini seçmiş, iş planını təsdiq etmiş, Azərbaycan Respublikası hökumətinə teleqram göndərmişlər.

Sankt-Peterburqla Azərbaycan arasında daha bir ünsiyyət körpüsü salan yeni cəmiyyətin üzvləri arasında elm və mədəniyyət xadimləri, işgüzar adamlar çoxdur.

## "BOZ QURD"
## (Sankt-Peterburq)

Neva sahillərində soydaşlarımızın yenicə yaratdıqları təşkilatlardan biri də "Boz qurd" adlanır. Onun əsas məqsədi xeyriyyəçilik tədbirləri təşkil etmək, Rusiyanın bu ikinci böyük şəhərində yaşayan soydaşlarımızın təəssübünü çəkmək və onlara atılan yersiz böhtanların qarşısını almaqdan ibarətdir.

Sankt-Peterburqdakı "Boz qurd"ların maraqlı planları var. Bu təşkilatların sədri Sankt-Peterburqda fəaliyyət göstərən "Azərbaycan Mədəniyyət Mərkəzi"nin yaradıcısı kimi tanınan Elçin Mirzəbəylidir.

## "AZƏRBACAN MƏDƏNİYYƏT CƏMİYYƏTİ"
## (Nijne-Vartovsk)

Nijne-Vartovsk şəhərində yaşayan soydaşlarımızın "Azərbaycan Mədəniyyət Mərkəzi" öz fəaliyyətində milli mədəni irsimizin təbliğinə, xalqımızın adət ənənələrinin qorunmasına xüsusi diqqət yetirir. Cəmiyyətin üzvləri, onun sədri Eldar İmanov erməni təcavüzkarlarının Azərbaycan torpağında törətdikləri cinayətlərə, qəsbkarlığına qarşı öz etiraz səsini ucaldırlar. Cəmiyyətin təşəbbüsü ilə Nijne-Vartovskda yaşayan soydaşlarımız Qarabağın qaçqınlarına kömək məqsədilə xeyli miqdarda pul toplayaraq göndərmişlər.

## “AZƏRBAYCAN TARİXİ VƏ MƏDƏNİYYƏTİ CƏMİYYƏTİ”
## (Kalininqrad)

“Azərbaycan Tarixi və Mədəniyyəti Cəmiyyəti”nin yaranmasına 1989-cu ildə təşəbbüs göstərilsə də, əsasən 1990-cı ilin may ayından fəaliyyətə başlamışdır. Cəmiyyətin sədri Zaur Məmmədovdur. Kalininqrad vilayətindən iki mindən çox azərbaycanlı yaşayır. Onların əksəriyyəti mühəndislər, həkimlər, tələbələr, milis işçiləri və fəhlələrdir. Cəmiyyətin əsas məqsədi Azərbaycanın zəngin tarixini və mədəniyyətini başqa xalqlar arasında təbliğ etmək, tanımaqdır. Lakin Cəmiyyətin fəaliyyət dairəsi bununla məhdudlaşmır. Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, demokratik proseslər Cəmiyyətin diqqət mərkəzindədir. Cəmiyyətin üzvləri Qarabağın dağlıq hissəsində və sərhəd bölgələrindəki hadisələri həyəcanla izləyir, mümkün olan maddi və mənəvi köməyi əsirgəmirlər. Azərbaycana qarşı erməni təcavüzü haqqında informasiya blokadasının yarılmasında, Qarabağa dair təhrif olunmuş məlumatların təkzib olunmasında Cəmiyyət vilayət zəhmətkeşləri arasında müntəzəm iş aparır.

Cəmiyyət Azərbaycanın tarixinin və mədəniyyətinin təbliğ olunmasında xeyli iş görür. Şəhər kitabxanasında Azərbaycan kitabı bölməsi fəaliyyət göstərir. Azərbaycanlı uşaqlara doğma dildə dərslər keçirilməsi təşkil edilmişdir. Azərbaycanın həyatındakı əlamətdar hadisələr qeyd olunur. Nizaminin 850 illiyi təntənə ilə bayram edilmişdir. Cəmiyyət Berlindəki Alman Azərbaycan, Varşavadakı Türk Cəmiyyəti və başqa təşkilatlarla əlaqə yaratmışdır.

## “AZƏRİ” CƏMİYYƏTİ
## (Dərbənd)

1991-ci ilin əvvəllərində Dərbənddə yaşayan azərbaycanlı ziyalılar arasında Dağıstanda azərbaycanlıların problemlərini həll etmək haqqında müəyyən bir təşkilatın yaradılması barədə fikirlər söylənilməyə başlandı. 1991-ci ilin oktyabr ayında Dərbənddə “Azəri” Cəmiyyəti yarandı və fəaliyyətə başladı. Cəmiyyətin sədri Klim Sultanovdur. Cəmiyyət Dağıstanda yaşayan 100 mindən artıq azərbaycanlının bu vaxta kimi yığılıb

qalmış və həll olunmasını gözləyən problemlərinin həlli sahəsində tədbirlər silsiləsi işləyib hazırlamışdır. İlk növbədə ana dilinin öyrənilməsi, mədəniyyət ocaqlarının yaradılması, dövlət strukturlarında azərbaycanlıların iştirakı və digər məsələlər Cəmiyyətin fəaliyyət dairəsinə daxildir. Cəmiyyət Dağıstan xalqlarının birliyi və həmrəyliyi şüarı altında çıxış edir. "Azəri" Cəmiyyəti "Sadval" Cəmiyyətinin liderləri ilə bir neçə dəfə dialoq aparmışdır. Onların ləzgi xalqını "birləşdirmək" ideyasının xalqların həyatında oynayacağı faciəni dönə-dönə başa salmağa çalışmışdır. Cəmiyyətin üzvləri erməni millətçilərinin liderlərinin Azərbaycanda ikinci cəbhə açmaq niyyətinin ifşa olunması üçün gündəlik iş aparırlar.

"Azəri" Cəmiyyətinin təşəbbüsü ilə 1992-ci il oktyabrın 31-də Dərbənddə Dağıstanda yaşayan azərbaycanlıların birinci qurultayı keçirilmişdir. Açılışda qurultay iştirakçılarına Azərbaycan Respublikasının prezidentinin, Azərbaycan Parlamentinin və şeyxülislam Hacı Allahşükür Paşazadənin təbrik teleqramları oxunmuşdur. Qurultayın işində Azərbaycan Respublikasının və Dağıstan hökumətinin, ictimai təşkilatların nümayəndələri iştirak etmişlər. Qurultayın qəbul etdiyi qətnamədə Azərbaycan və Dağıstan xalqları arasında dostluq, qarşılıqlı yardım haqqında saziş bağlanması, Dağıstan Ali orqanlarında azərbaycanlıların təmsil olunması və onların hüquqlarının qorunması, Dərbənd şəhərində demoqrafik vəziyyətin süni surətdə dəyişdirilməsinin qarşısının alınması və digər məsələlər öz əksini tapmışdır.

## "AZƏRİ" CƏMİYYƏTİ
## (Vladiqafqaz)

"Azəri" Cəmiyyəti Şimali Osetiya Muxtar Respublikasının Vladiqafqaz şəhərində yaradılmışdır. Cəmiyyətin sədri Q.Məmiyevdir. Vladiqafqazda azərbaycanlılar əsrimizin əvvəllərindən məskunlaşmağa başlamışlar. İndi Vladiqafqazın özündə 1500 nəfər, Şimali Osetiyada isə iki minə yaxın azərbaycanlı yaşayır. Cəmiyyətin ətrafında şəhərin adlı-sanlı azərbaycanlı sakinləri birləşmişlər. Cəmiyyətin əsas məqsədi milli adət ənənələri, ana dilini yaşatmaq, milli şüurun inkişafına kömək etməkdir. Azərbaycanda baş verən demokratik prosesləri təbliğ etmək,

yerli əhalidə Azərbaycana olan marağı artırmaqdır. Cəmiyyətin bir məqsədi də Şimali Osetiyada azərbaycanlılarla bağlı abidələrin, tarixi əlaqələrin öyrənilməsinə Azərbaycan alimlərinin, tədqiqatçılarının diqqətini cəlb etməkdir.

## "AZƏRİ" CƏMİYYƏTİ
## (Tolyatti)

